*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası
Təhsil Nazirliyinin orqanı

5 noyabr 2021-ci il
№42 (8950)

www.muallim.edu.az
muallim@edu.gov.az



**İlham ƏLİYEV,**
**Müzəffər Ali Baş Komandan**

## Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik

# ZƏFƏR GÜNÜN MÜBARƏK, AZƏRBAYCAN!

Bu zəfər tarixi zəfərdir. Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi. Mən dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, biz daha güclü olmalıyıq və nəyi nə vaxt, necə etmək lazımdır, biz bilirik. Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir dəmir yumruq yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik.





# AZƏRBAYCAN

## 44 gün ərzində ədaləti bərpa etdi



**Bu gün bütün dünya görür ki, Qarabağ Azərbaycandır!**

### Prezident İlham ƏLİYEV

Mən Ali Baş Komandan kimi əmr verdim ki, Azərbaycan əsgəri irəli, torpağımızı azad etməliyik, işğala son qoymalıyıq, işğalçını cəzalandırmalıyıq və belə də oldu. Azərbaycan 44 gün ərzində istədiyinə nail oldu, ədaləti bərpa etdi.

Şuşanın azad edilməsi tarixi hadisədir. Bizim Ordumuz, qəhrəman övladlarımız dağlardan, dərələrdən, meşələrdən, cığırlardan keçərək, sıldırım qayaları qət edərək, qayalara dırmaşa-dırmaşa Şuşaya qalxaraq orada əlbəyaxa döyüşdə düşməni məhv etdi, Azərbaycan bayrağını Şuşada qaldırdı.

Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Paradların birində mən demişdim ki, parada 2016-cı ildə Lələtəpə yüksəkliyində qaldırılmış bayraq gətiriləcək. Demişdim ki, gün gələcək və bu gün işğaldan azad edilən torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və bu gün gəldi. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bundan sonra ancaq və ancaq irəli gedəcəyik.

Hər kəs bilir ki, Ermənistan rəhbərliyi bir il bundan əvvəl demişdi ki, “Qarabağ Ermənistandır və nöqtə”. Mən isə demişdim ki, “Qarabağ Azərbaycandır və nida”. Bu gün bütün dünya görür ki, Qarabağ Azərbaycandır! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan Ordusuna!





# Yeniləşən Azərbaycana yeni məktəb




## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllı və Şamaxı rayonlarında təhsil müəssisələrinin açılışında iştirak ediblər



Noyabrın 1-də İsmayıllı şəhər Natiq Behdiyev adına 6 saylı tam orta məktəbin yeni binası istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Məlumat verilib ki, 1984-cü ildə inşa olunan bu məktəbin binası ötən müddətdə heç vaxt təmir olunmadığından istifadəyə yararsız vəziyyətə düşmüşdü. Ona görə də Heydər Əliyev Fondunun dəstəyi ilə məktəb üçün yeni binanın inşasına başlanıldı. 720 şagird yerlik yeni məktəb binası 5 korpusdan ibarətdir. Məktəbin nəzdində, həmçinin bütün yaş qruplarının istifadəsi üçün nəzərdə tutulan STEAM Mərkəzi fəaliyyət göstərir. Mərkəzdə şagirdlərə praktik məşğələlər vasitəsilə elmi, texniki biliklərin gündəlik həyatda tətbiqi nümayiş olunacaq. Məktəbdə sinif otaqları, fizika, kimya və biologiya laboratoriyaları, informatika, hərbi təlim, tibb, əmək təlimi otaqları, kitabxana, idman zalları, açıq idman meydançası var. Otaqlar zəruri mebel və avadanlıqla, əyani vəsaitlərlə təchiz edilib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 1-də Şamaxı rayonunda akademik Heydər Hüseynov adına Çarhan kənd tam orta məktəbinin yeni binasının açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, məktəbin əvvəlki binası 1972-ci ildə inşa olunmuşdu. Orta təhsil müəssisəsi tədris üçün artıq yararsız vəziyyətə düşdüyündən Heydər Əliyev Fondunun təşəbbüsü ilə məktəb üçün yeni binanın tikilməsinə qərar verildi.

Diqqətə çatdırıldı ki, 420 şagird yerlik məktəb binası 5 korpusdan ibarətdir. Burada sinif otaqları, fizika, kimya və biologiya laboratoriyaları, informatika, hərbi təlim, tibb, əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt və idman zalları, açıq idman meydançası var.

Qeyd edək ki, Heydər Əliyev Fondu elmin və təhsilin inkişafını daim diqqət mərkəzində saxlayır, bu sahədə dövlət tərəfindən görülən işlərə öz töhfəsini verir. Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə təhsil sahəsində ardıcıl olaraq irimiqyaslı layihələr həyata keçirilir. Bu layihələr sırasına "Uşaq evlərinin və internat məktəblərinin inkişaf proqramı", "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" və "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramları daxildir. Fondun bu proqramları çərçivəsində Şamaxı rayonunda da müxtəlif illərdə yeni təhsil ocaqlarının tikintisi, təmiri və lazımi avadanlıqla təmin edilməsi üzrə bir sıra layihələr reallaşdırılıb.

***

Noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondunun dəstəyi ilə Şamaxı şəhərində inşa edilən 7 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, 80 yerlik məktəbəqədər təhsil müəssisəsində qrup, oyun və yataq otaqları, idman, akt və musiqi zalları, tibb otağı var. Burada uşaqların ilkin biliklərə yiyələnmələri və əylənmələri üçün zəruri şərait yaradılıb. Bağçanın həyətində abadlıq-yaşıllaşdırma işləri aparılıb, oyun meydançası və söhbətgahlar quraşdırılıb.

Qeyd edək ki, Heydər Əliyev Fondunun 2014-cü ildən başlayan "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramı çərçivəsində məktəbəqədər tərbiyə müəssisələrinin yenidən qurulması, uşaqların təlim-tərbiyəsinin hərtərəfli təmin olunması ilə bağlı bir sıra tədbirlər həyata keçirilib. O cümlədən Heydər Əliyev Fondu tərəfindən bölgələrimizdə, həmçinin Şamaxı rayonunda körpələr evi-uşaq bağçalarının inşası və təmiri ilə bağlı layihələr reallaşdırılıb.







# Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş Vətən müharibəsi qəhrəmanlarının adlarının əbədiləşdirilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" və "Azərbaycanın Milli Qəhrəmanı" adları verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına uyğun olaraq, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş Vətən müharibəsi qəhrəmanlarının və Azərbaycanın Milli qəhrəmanlarının adlarının əbədiləşdirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Sumqayıt şəhəri 28 nömrəli tam orta məktəbə "Azərbaycanın Milli Qəhrəmanı" Polad İsrayıl oğlu Həşimovun adı verilsin.

**2.** Bakı şəhəri 98 nömrəli tam orta məktəbə "Azərbaycanın Milli Qəhrəmanı" İlqar Anzor oğlu Mirzəyevin adı verilsin.

**3.** Qubadlı rayonu Xanlıq kənd 3 nömrəli tam orta məktəbə (müvəqqəti olaraq Abşeron rayonunda yerləşir) "Azərbaycanın Milli Qəhrəmanı" Şükür Nəriman oğlu Həmidovun adı verilsin.

**4.** Bakı şəhəri 47 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Zaur İsmayıl oğlu Nudirəliyevin adı verilsin.

**5.** Qəbələ şəhəri 3 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Əfqan Ağasəf oğlu Abdurahmanovun adı verilsin.

**6.** Masallı şəhəri 6 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Ramiz Sübhan oğlu Cəfərovun adı verilsin.

**7.** Biləsuvar şəhəri Uşaq İncəsənət Məktəbinə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Orxan Nadir oğlu Əkbərovun adı verilsin.

**8.** Kəlbəcər rayonu 2 nömrəli tam orta məktəbə (müvəqqəti olaraq Gəncə şəhəri, Gülüstan qəsəbəsində yerləşir) Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Anar Vaqif oğlu Əliyevin adı verilsin.

**9.** Qubadlı rayonu Mahmudlu kənd tam orta məktəbinə (müvəqqəti olaraq Sumqayıt şəhərində yerləşir) Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Faiq Qaçay oğlu Qasımovun adı verilsin.

**10.** Bakı şəhəri 216 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Ramiz Vaqif oğlu Qasımovun adı verilsin.

**11.** Qubadlı rayonu Xanlıq kənd ümumi orta məktəbinə (müvəqqəti olaraq Bakı şəhəri, Ramana qəsəbəsində yerləşir) Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Vüqar Əhməd oğlu Ağayevin adı verilsin.

**12.** Beyləqan şəhəri Təbiət və Humanitar Fənlər Təmayüllü Liseyə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Elbrus Eyvaz oğlu Bayramovun adı verilsin.

**13.** Lerik şəhəri 2 saylı Körpələr Evi-uşaq bağçasına Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Amid Rəbbil oğlu Heydərovun adı verilsin.

**14.** Zaqatala şəhəri Humanitar fənlər gimnaziyasına Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Şixamir Oruc oğlu Qaflanovun adı verilsin.

**15.** Bakı şəhəri 88 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Elçin Elşən oğlu Mansurovun adı verilsin.

**16.** Sumqayıt şəhəri 25 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Anar Mehman oğlu Şükürovun adı verilsin.

**17.** Cəlilabad şəhəri 2 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Rəşad Arif oğlu Abdullayevin adı verilsin.

**18.** Biləsuvar rayonu Xırmandalı kənd Uşaq İncəsənət Məktəbinə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Nihad Akif oğlu Babayevin adı verilsin.

**19.** Bakı şəhəri 48 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Ceyhun Aydın oğlu Həsənovun adı verilsin.

**20.** Biləsuvar rayonu Uşaq-Gənclər İdman-Şahmat məktəbinə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Cavid Hilal oğlu Mahmudovun adı verilsin.

**21.** Abşeron rayonu Xırdalan şəhəri 5 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Veysəl Yadullayeviç Musibovun adı verilsin.

**22.** Zəngilan rayonu 1 nömrəli tam orta məktəbə (müvəqqəti olaraq Bakı şəhəri, Binəqədi rayonunda yerləşir) Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Surxay Əbdül oğlu Noçuyevin adı verilsin.

**23.** Zaqatala şəhəri 5 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" İsmayıl Məhəmməd oğlu Səmədovun adı verilsin.

**24.** Zaqatala rayonu Aşağı Tala kənd 1 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Valeh Vahid oğlu Bədəlovun adı verilsin.

**25.** Bakı şəhəri 291 nömrəli Ekologiya liseyinə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Azad Arif oğlu Hümbətovun adı verilsin.

**26.** Sumqayıt şəhəri 14 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Adil Asəm oğlu İbrahimlinin adı verilsin.

**27.** Quba rayonu İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman-Şahmat məktəbinə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Şahin Hüseynbala oğlu Allahyarovun adı verilsin.

**28.** Salyan Peşə Liseyinə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Sübhan Rahim oğlu Cəbrayılovun adı verilsin.

**29.** Neftçala şəhər Uşaq İncəsənət məktəbinə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Camal Vidadi oğlu İsmayılovun adı verilsin.

**30.** Quba şəhəri Texniki təmayüllü liseyə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Mehrab Söhrab oğlu Niftəliyevin adı verilsin.

**31.** Ağstafa rayonu Böyük Kəsik kənd tam orta məktəbinə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Azər Nazim oğlu Yusiflinin adı verilsin.

**32.** Masallı şəhəri 3 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" İntiqam Bayram oğlu Əsgərlinin adı verilsin.

**33.** Qobustan şəhəri 2 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Elyar Arif oğlu Vəliyevin adı verilsin.

**34.** Tovuz rayonu Qovlar şəhər İnteqrasiya təlimli internat tipli gimnaziyaya Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Orxan Rövşən oğlu Cabbarovun adı verilsin.

**35.** Oğuz şəhəri 3 nömrəli məktəb-liseyə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Nail Nəriman oğlu İbrahimlinin adı verilsin.

**36.** Balakən şəhəri Humanitar və texniki təmayüllü liseyə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Amin Tacəddin oğlu Novruzovun adı verilsin.

**37.** Füzuli rayonu Horadiz şəhəri 3 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" Fəqan Amil oğlu Zalovun adı verilsin.

**38.** Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və aidiyyəti yerli icra hakimiyyəti orqanları bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

*Bakı şəhəri, 4 noyabr 2021-ci il*

# Əməkdaşlıq perspektivləri müzakirə olunub



## Təhsil naziri Boğaziçi Universitetinin rektoru ilə görüşüb

Oktyabrın 29-da təhsil naziri Emin Əmrullayev Türkiyə Respublikası Boğaziçi Universitetinin rektoru Mehmet Naci İnci ilə görüşüb.

Görüş zamanı Boğaziçi Universiteti ilə ölkəmizin ali təhsil müəssisələri arasında mümkün əməkdaşlıq perspektivləri müzakirə olunub.

# ABŞ səfiri Təhsil Nazirliyində

Oktyabrın 29-da təhsil naziri Emin Əmrullayev Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberger ilə görüşüb.

Görüş zamanı Təhsil Nazirliyi ilə Amerika Birləşmiş Ştatları arasında təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və perspektivləri müzakirə edilib.

# Vətəndaşlar videobağlantı vasitəsilə qəbul edilib

Oktyabrın 29-da təhsil naziri Emin Əmrullayev Hacıqabul, Neftçala, Saatlı, Sabirabad, Salyan rayonlarının və Şirvan şəhərinin sakinlərini videobağlantı vasitəsilə qəbul edib. Qəbulda həmin şəhər və rayonlarda müvəqqəti məskunlaşmış keçmiş məcburi köçkünlər də iştirak ediblər.

Təhsil naziri vətəndaşların müraciət, şikayət və təkliflərini diqqətlə dinləyərək hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

Qeyd edək ki, videoqəbulun təşkil edilməsində əsas məqsəd vətəndaşların Təhsil Nazirliyinə müraciət imkanlarını müasir texnologiyalardan istifadə etməklə genişləndirmək, regionlarda yaşayanlara nazirliyin inzibati binasına gəlmədən vəzifəli şəxslərlə videobağlantı vasitəsilə birbaşa əlaqə imkanının yaradılmasıdır.

# 200 azərbaycanlı HTP çərçivəsində xaricdə təhsil hüququ qazanıb

**Hökumətlərarası Təqaüd Proqramları (HTP) çərçivəsində 2021-2022-ci tədris ili üzrə ümumilikdə 200 azərbaycanlı dünyanın 6 müxtəlif ölkəsində 41 nüfuzlu ali təhsil müəssisəsində müxtəlif ixtisas istiqamətləri üzrə təhsil almaq hüququ qazanıb.**

HTP çərçivəsində xaricdə təhsil almaq hüququ qazanmış tələbələrin 148-i Macarıstan, 21-i Çin Xalq Respublikası, 10-u Latviya, 15-i Türkiyə Respublikası (YTB xətti ilə doktorantura), 3-ü Rumıniya və 3-ü Rusiya Federasiyası üzrədir. Ümumilikdə, 36 nəfər doktorantura, 143 nəfər magistratura, 21 nəfər isə bakalavriat səviyyələrində təhsil almaq hüququ qazanıb.

Tələbələrin qəbul aldığı universitetlər sırasında "Budapest University of Technology and Economics", "Corvinus University of Budapest", "Eötvös Lorand University", "MGIMO University", "Riga Technical University" və "İstanbul Üniversitesi" üstünlük təşkil edir.

Qeyd edək ki, HTP çərçivəsində təhsil alacaq təqaüdçülərdən biri dünya universitetlərinin beynəlxalq reytinq cədvəlində 28-ci sırada olan "Tsingua University" (Çin Xalq Respublikası) ali təhsil müəssisəsinə qəbul olub.

Ümumi statistika ilə keçidə *(http://htp.edu.az/uploads/fileuploads/2021/10/40cb3aa8661a412bab1e99b8b79ea5f1.pdf)* daxil olaraq tanış ola bilərsiniz.

Azərbaycan Respublikasının imzaladığı hökumətlərarası müqavilələrə uyğun olaraq bəzi ölkələr (Macarıstan, Çin, Qazaxıstan, Rumıniya, Tacikistan, Latviya və s.) hər il Azərbaycan vətəndaşları üçün təqaüd yerləri ayırır. Sözügedən təqaüd proqramlarına dair elanlar müvafiq internet səhifə vasitəsi ilə *(http://htp.edu.az/az-/index)* mütəmadi olaraq ictimaiyyətə təqdim edilir.

# Azərbaycan-Türkiyə arasında təhsil sahəsində əməkdaşlıq yüksələn xətlə inkişaf edir

## Təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Respublikasında səfərdə olub



Noyabrın 1-də təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyə Respublikasına səfər edib.

Səfər çərçivəsində təhsil naziri Emin Əmrullayev Türkiyə Respublikasının milli təhsil naziri Mahmut Özerlə görüşüb. Görüş zamanı iki ölkə arasında ümumi və peşə təhsili sahəsində əməkdaşlığın cari vəziyyəti və əlaqələrin gələcək perspektivləri müzakirə olunub. Tərəflər 19 fevral 2021-ci il tarixində imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair Protokol”unun icrasından irəli gələn məsələlər ətrafında fikir mübadiləsi aparıb.

Təhsil Nazirliyinin nümayəndə heyəti Bilkənt Universitetini də ziyarət edib. Universitetin rektoru Abdullah Atalar ilə keçirilən görüş zamanı Bilkənt Universiteti ilə Azərbaycanın ali təhsil müəssisələri arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



### Türkiyə Respublikası Ali Təhsil Şurasının rəhbəri ilə görüş

Noyabrın 1-də Türkiyədə səfərdə olan təhsil naziri Emin Əmrullayev Türkiyə Respublikası Ali Təhsil Şurasının (YÖK) rəhbəri Erol Özvarla görüşüb.

Görüşdə iki ölkənin ali təhsil müəssisələri arasında əlaqələrdən məmnunluq hissi ifadə olunub, “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində Azərbaycan Dövlət Aqrar Universiteti ilə Ege Universiteti arasında ikili diplom proqramının əhəmiyyəti vurğulanıb.




### Ankarada fəaliyyət göstərən Heydər Əliyev adına məktəblə tanışlıq

Noyabrın 2-də səfər çərçivəsində əvvəlcə ulu öndər Heydər Əliyevin Türkiyənin Ankara şəhərində yerləşən abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub.

Daha sonra Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Ankarada fəaliyyət göstərən Heydər Əliyev adına məktəbi ziyarət edib, müəssisədəki tədris prosesi ilə yaxından tanış olub.

Təhsil naziri Emin Əmrullayev səfər zamanı Türkiyənin Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları ilə iş üzrə Baş İdarəsinin (YTB) sədri Abdullah Erenlə də görüşüb. Təhsil naziri YTB tərəfindən ayrılan təqaüdlər çərçivəsində Azərbaycan Respublikası vətəndaşlarının Türkiyədə doktorantura səviyyəsində təhsil almasını yüksək qiymətləndirib.

Qeyd edək ki, YTB ilə əldə olunan razılıq əsasında 2021-2022-ci tədris ilində 15 azərbaycanlı doktorantura səviyyəsində Türkiyədə təhsil almaq hüququ qazanıb.



### Rəqəmsal Transformasiya Ofisinin rəhbəri ilə görüş

Noyabrın 2-də təhsil naziri Emin Əmrullayev Türkiyə Respublikası Prezidenti yanında Rəqəmsal Transformasiya Ofisinin rəhbəri Ali Taha Koç ilə görüşüb.

Görüş zamanı Azərbaycan Respublikası Təhsil İnstitutu nümayəndələrinin TEKNOFEST festivalında iştirakı vurğulanıb.

## Təhsil naziri Türk Şurası Təhsil Nazirlərinin 6-cı iclasında və Beynəlxalq Türk Akademiyası Elmi Şurasının 4-cü iclasında iştirak edib



Noyabrın 4-də Türkiyənin İstanbul şəhərində Türk Şurası Təhsil Nazirlərinin 6-cı iclası və Beynəlxalq Türk Akademiyası Elmi Şurasının 4-cü iclası keçirilib.

Türkiyə, Qazaxıstan və Qırğız təhsil nazirləri, Özbəkistan təhsil nazirinin müavini, habelə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) Baş katibi, Beynəlxalq Türk Akademiyasının prezidenti, Macarıstanın İstanbuldakı Baş konsulu və digər yüksək səviyyəli rəsmilərin qatıldığı iclaslar zamanı Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) çərçivəsində əməkdaşlığın cari vəziyyəti və perspektivləri müzakirə olunub.

Hər iki tədbirdə çıxış edən təhsil naziri Emin Əmrullayev TDƏŞ çərçivəsində təhsil sahəsində irəli sürülən təşəbbüslər yönündə görülən işlər haqqında məlumat verib. Nazir “XV əsrə qədər Ortaq Türk Tarixi” dərsliyinin 2019-2020-ci tədris ilindən etibarən 151 yerli ümumi təhsil müəssisəsində fakültativ fənn kimi tədris olunduğunu bildirib. Bundan başqa, Təhsil Nazirliyinin ümumi təhsil müəssisələri şagirdlərinin mübadiləsində aktiv iştirak etməsi, 17-24 mart 2018-ci il tarixlərində keçirilmiş ikinci mübadilə proqramına ölkəmizin evsahibliyi etməsi xüsusi vurğulanıb. Nazir həmçinin ali təhsil sahəsində əlaqələrin dərinləşməsi baxımından mühüm rola malik Türk Universitetləri Birliyinin bir müddət öncə keçirilmiş 5-ci konfransında Azərbaycan Dövlət İqtisad Universitetinin Birliyin üzvü seçildiyini qeyd edib.

Emin Əmrullayev ötən il Vətən müharibəsi zamanı ölkəmizlə həmrəylik nümayiş etdirərək Azərbaycanın haqlı mövqeyini dəstəklədiyinə görə TDƏŞ-ə xüsusi təşəkkürünü bildirib. İclas zamanı Ermənistan silahlı qüvvələrinin ötən ildə mülki əhali və infrastruktura qarşı hücumlarının nəticələri haqqında məlumat tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Qeyd edək ki, Beynəlxalq Türk Akademiyasının Elmi Şurasının 4-cü iclasında 2022-ci il üzrə Elmi Şuraya sədrliyin Azərbaycan Respublikası Təhsil Nazirliyindən Türkiyə Respublikası Milli Təhsil Nazirliyinə keçdiyini bildirən lövhə təhsil naziri Emin Əmrullayev tərəfindən Türkiyənin milli təhsil naziri Mahmud Özərə təqdim edilib.

# ŞANLI ZƏFƏR SALNAMƏSİ



## Döyüş iştirakçısı olan məzun və tələbələrin əsərlərindən ibarət sərgi keçirilib




**Oktyabrın 29-da Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının (ADRA) məzunu, Aprel döyüşlərində şəhid olan Samir Kaçayev və akademiyanın 44 günlük Vətən müharibəsində iştirak etmiş tələbə və məzunlarının əsərlərindən ibarət sərgi təşkil edilib. Sərgi Təhsil Nazirliyinin təşkilatçılığı və ADRA-nın dəstəyi ilə keçirilib.**

Sərgidə təhsil nazirinin müavini Firudin Qurbanov, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru Ömər Eldarov, ali məktəblərin prorektorları, akademiyanın, eləcə də digər ali təhsil müəssisələrinin Vətən müharibəsində iştirak etmiş tələbə və məzunları iştirak ediblər.

Sərginin təşkilində məqsəd 44 günlük Vətən müharibəsi, eləcə də Aprel döyüşlərində şəhid olan məzunlarımızın xatirəsinin anılması, müharibədə iştirak edən tələbə və məzunlarımıza diqqət və qayğının ifadəsi olub.

Əvvəlcə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sərgidə açılış nitqi ilə çıxış edən Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru Ömər Eldarov məlumat verib ki, ADRA-nın "Təsviri sənət" fakültəsinin "Heykəltəraşlıq" kafedrasının məzunu, 2016-cı il aprel döyüşlərində şəhid olmuş gənc heykəltəraş Samir Kaçayev 22 illik ömründə 30 heykəltəraşlıq işinə imza atıb.

Sərgidə çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov qeyd edib ki, Ali Baş Komandan cənab İlham Əliyevin müdrik və qətiyyətli siyasəti nəticəsində Müzəffər Ordumuz işğal altında olan torpaqlarımızı azad edərək bizə bu qələbəni bəxş etdi. Nazir müavini rəşadətli ordumuzun əldə etdiyi şanlı zəfərdə tələbələrin, təhsil işçilərinin böyük rolu olduğuna toxunub. 8 noyabr - Zəfər Günü ilə bağlı ölkə səviyyəsində müxtəlif tədbirlərin təşkil edildiyini qeyd edən Firudin Qurbanov bugünkü sərginin də bu yöndə xüsusi əhəmiyyət daşıdığını vurğulayıb.

Tədbirdə ADRA-nın müəllimi, heykəltəraş Zamiq Rzayev, Samir Kaçayevin atası Ziyatin Kaçayev də çıxış edərək göstərilən diqqətə görə təşəkkürlərini ifadə ediblər.

Daha sonra şəhid məzun Samir Kaçayevin, eləcə də akademiyanın 44 günlük Vətən müharibəsi iştirakçısı olmuş tələbə və məzunlarının əsərlərindən ibarət sərgiyə baxış keçirilib.

# "ZəfərFest" Yaradıcılıq Festival-Sərgisi



Noyabrın 4-də Təhsil Nazirliyinin təşkilatçılığı ilə Heydər Əliyev Sarayında 8 noyabr - Zəfər Gününə həsr olunmuş "ZəfərFest" Yaradıcılıq Festival-Sərgisi keçirilib.

Festival-Sərginin məqsədi Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızın əziz xatirəsinin ehtiramla yad edilməsi, Azərbaycan Ordusunun Vətən müharibəsində zəfər yürüşü, şanlı qələbəsi və dünya hərb tarixində açdığı yeni səhifə ilə bağlı uşaq və gənclərin maarifləndirilməsi, ölkəmizin işğal altında olan ərazilərinin azad edilməsində ordumuzun və dövlətimizin əldə etdiyi nailiyyətlərin, qazanılan zəfərin bütün Türk dünyasının qələbəsi olduğunun gənc nəslə çatdırılmasından ibarət olub.

Festivalın sərgi hissəsində Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən uşaq-gənclər inkişaf mərkəzlərinin yetirmələrinin Zəfər Günü ilə bağlı hazırladıqları 70-ə yaxın rəsm və əl işlərinə baxış keçirilib.

Bədii hissədə Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən uşaq-gənclər inkişaf mərkəzlərinin bədii özfəaliyyət kollektivlərinin, Cövdət Hacıyev adına 3 nömrəli onbirillik musiqi məktəbinin və Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin kollektivlərinin, ümumilikdə 300-ə yaxın məktəblinin iştirakı ilə Zəfər Gününə həsr olunmuş ədəbi-bədii kompozisiyalar nümayiş olunub, məktəblilərin ifasında vətənpərvərlik mövzusunda şeir və mahnılar səslənib.

# "Qəhrəman ataların istedadlı övladları"



Bakı Şəhəri üzrə Təhsil İdarəsi (BŞTİ) tərəfindən "Qəhrəman ataların istedadlı övladları" adlı tədbir keçirilib.

Öncə Dövlət Himni səsləndirilib və Vətən şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirə BŞTİ-nin müdiri Mehriban Vəliyeva, Azərbaycan Respublikasının Diaspora İş üzrə Dövlət Komitəsi və Azərbaycan Rəssamlar İttifaqının nümayəndələri, İdarənin müvafiq struktur bölmə rəhbərləri, Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, Vətən müharibəsi iştirakçıları, 5 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin (UGİM) dərnək üzvləri, ictimaiyyət nümayəndələri, müəllimlər və şəhid övladları qatılıblar.

Tədbir 5 nömrəli UGİM tərəfindən "Dünya Qarabağ şəhidlərinin və qazilərinin uşaqlarının gözü ilə" layihəsi çərçivəsində şəhid övladlarının hazırladıqları əl işi və rəsmlərə baxış keçirilməsi ilə başlayıb.

Tədbirdə çıxış edən BŞTİ-nin müdiri Mehriban Vəliyeva Azərbaycan əsgərinin rəşadəti və xalqımızın birliyi nəticəsində 8 noyabr 2020-ci ilin şanlı tariximizə Zəfər Günü kimi daxil olmasından bəhs edib. M.Vəliyeva bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Azərbaycan dövlətini şanlı qələbəyə aparan daxili və xarici siyasəti, Azərbaycan Ordusunun Vətən müharibəsindəki zəfər yürüşü və dünya hərb tarixində açdığı yeni səhifə dərsliklərimizə yeni mövzu gətirdi.

Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinin hər birimiz üçün əziz olduğunu bildirən BŞTİ müdiri xalqımızın qəhrəman övladları ilə qürur duyduğunu vurğulayıb. Dövlətimiz tərəfindən müharibə iştirakçıları olan qazilər və şəhid ailələrinin hərtərəfli qayğı ilə əhatə olunduğunu söyləyən İdarə müdiri onların məktəblilər üçün əsl örnəyə çevrildiyini qeyd edib.

Daha sonra akril və yağlı boyalarla zəfər salnaməsini kətan üzərinə köçürən şəhid övladlarına BŞTİ tərəfindən "Təşəkkürnamə" və hədiyyələr təqdim olunub.

Tədbir şagirdlərin ifasında şeirlər, mahnılar və ədəbi-bədii kompozisiyalarla davam edib.

Qeyd edək ki, "Dünya Qarabağ şəhidlərinin və qazilərinin uşaqlarının gözü ilə" layihəsinin əsas məqsədi şəhid övladlarının çəkdikləri rəsmlərlə xalqımızın qəhrəman oğullarını bütün dünyaya tanıtmaq, şagirdlərin vətənpərvərlik ruhunda tərbiyəsi işinin davamlı təşkilinə nail olmaq və onların yaradıcılıq bacarıqlarının inkişafına dəstək verməkdən ibarətdir.

Onu da qeyd edək ki, şəhid övladlarının çəkdiyi rəsm əsərləri Azərbaycan Rəssamlar İttifaqının xətti ilə dünyanın məşhur sərgi salonlarında nümayiş olunacaq.

# ŞANLI ZƏFƏRİN işığında...

## Tərtər rayonuna mediatur keçirilib









### Bayraq yürüşü

Noyabrın 3-də Tərtər rayonuna mediatur təşkil edilib.

Mediaturun məqsədi Tərtər rayonunda 8 noyabr - Zəfər Günü və 9 noyabr - Dövlət Bayrağı Günü münasibəti ilə "Bayraq yürüşü"nün keçirilməsi, Tərtər rayonu Şıxarx kənd 1 nömrəli modul tipli tam orta məktəbin açılışı və məktəbin həyətində Zəfər Gününə həsr edilmiş aksiya çərçivəsində ağac əkilməsi, həmçinin Tərtər rayonu üzrə 44 günlük Vətən müharibəsində döyüşən təhsil işçiləri ilə görüşün keçirilməsidir.

Mediaturda təhsil nazirinin müşaviri Elnur Əliyev, Təhsil Nazirliyinin Ümumi təhsilin təşkili və idarəolunması şöbəsinin müdir əvəzi Orxan Abbasov, İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov, media qurumlarının rəhbərləri və KİV nümayəndələri iştirak ediblər.

Mediatur iştirakçıları əvvəlcə Tərtər şəhərinin girişindən Bayraq Meydanına doğru yürüş ediblər.

### Modul tipli məktəbin açılışı

Daha sonra şəhid Dağıstan Əzizovun adını daşıyan Şıxarx kənd 1 nömrəli modul tipli tam orta məktəbin açılışı olub.

Açılış mərasimində mediatur iştirakçıları ilə yanaşı Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Tərtər Rayon Təhsil Şöbəsinin müdir əvəzi Nuranə Abdullazadə və məktəb direktoru Ramil Ağayev də iştirak edib.

Əvvəlcə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan məktəb direktoru Ramil Ağayev məlumat verib ki, 44 günlük Vətən müharibəsi zamanı məktəbin əvvəlki tədris binası hədəfə düşən 10-dan çox mərmi nəticəsində tamamilə yararsız hala düşüb. Hazırda yeni istifadəyə verilən modul tipli məktəb 12 sinif otağından ibarətdir. 80 şagird yerlik məktəbdə 22 müəllim çalışır.

44 günlük Vətən müharibəsi zamanı Tərtər rayonunda ümumilikdə 16 ümumtəhsil məktəbinin zərər gördüyünü, bir məktəblinin şəhid olduğunu xatırladan təhsil nazirinin müşaviri Elnur Əliyev Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Müzəffər Ordumuzun əldə etdiyi möhtəşəm Zəfərə toxunub.

Nazir müşaviri çıxışının sonunda şagird və müəllimləri yeni məktəb münasibətilə təbrik edib və uğurlar arzulayıb.

Çıxış edən Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov rayon üzrə təhsil göstəricilərindən danışıb və ötən ilin uğurlarına toxunub. İcra başçısı qeyd edib ki, Vətən müharibəsi zamanı zərər görmüş 16 məktəbdən 15-də artıq təmir-bərpa işləri həyata keçirilib.

Mediatura qatılan "Qanun" nəşriyyat evinin rəhbəri Şahbaz Xuduoğlu məktəbə kitablar hədiyyə edib.

Məktəbdə 44 günlük Vətən müharibəsində Tərtər rayonu üzrə zərər dəymiş təhsil müəssisələrinin görüntülərindən ibarət sərgiyə də baxış keçirilib.

### "Zəfərdən yaşıl düşüncəyə"

Daha sonra sözügedən məktəbin həyətində Təhsil Nazirliyinin təşkilatçılığı, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, İDEA İctimai Birliyi və Regional İnkişaf İctimai Birliyinin (RİİB) dəstəyi ilə həyata keçirilən, Zəfər Gününə həsr olunmuş "Zəfərdən yaşıl düşüncəyə" adlı aksiya çərçivəsində ağaclar əkilib.

### Vətən müharibəsində döyüşən təhsil işçiləri ilə görüş

Noyabrın 3-də Tərtər rayonuna mediatur çərçivəsində rayon üzrə 44 günlük Vətən müharibəsində döyüşən təhsil işçiləri ilə görüş keçirilib.

Görüşdə təhsil nazirinin müşaviri Elnur Əliyev, Təhsil Nazirliyinin Ümumi təhsilin təşkili və idarəolunması şöbəsinin müdir əvəzi Orxan Abbasov, İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov, Tərtər Rayon Təhsil Şöbəsinin müdir əvəzi Nuranə Abdullazadə, rayon üzrə Vətən müharibəsində iştirak edən 8 təhsil işçisi, media qurumlarının rəhbərləri və KİV nümayəndələri iştirak ediblər.

Görüşün məqsədi Zəfər Günü ilə bağlı müharibədə iştirak edən təhsil işçilərinə diqqət, təhsil işçilərinin Zəfərin əldə olunmasında rolunun vurğulanması, onlarla görüşün gənclərə stimul verməsi və vətənpərvərlik hisslərinin aşılanması olub.

Tədbir Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinin yad edilməsi ilə başlayıb.

Görüşdə iştirak edən təhsil nazirinin müşaviri Elnur Əliyev Zəfərin qazanılmasında Vətən müharibəsi iştirakçısı olan təhsil işçilərinin də rolunu vurğulayıb. Nazir müşaviri döyüşən təhsil işçilərinin təhsilalanların vətənpərvərlik ruhunda tərbiyə olunmasında əhəmiyyətli rolundan danışıb, onların gənc nəslə nümunə olduqlarını diqqətə çatdırıb.

Çıxış edən digər görüş iştirakçıları da təhsil işçilərinə şanlı qələbənin qazanılmasında payı olduqlarına görə təşəkkür edib, onlara xüsusi diqqət və qayğını ifadə ediblər.

Daha sonra döyüşdə iştirak edən təhsil işçilərindən fiziki-tərbiyə müəllimi Kamil Şirinov, musiqi müəllimi Saleh Əsgərov və digərləri çıxış edərək keçdikləri döyüş yolu ilə bağlı öz hekayələrini bölüşüb, eləcə də təhsilə verə biləcəkləri töhfədən danışıblar.

## Oktyabrda 257 nəfərin diplomu tanınıb

Təhsildə Keyfiyyət Təminatı Agentliyi oktyabr ayı üçün tanınma üzrə müraciətlərin statistikasını açıqlayıb. Belə ki, oktyabr ayı üzrə 338 müraciətçinin 257-si barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilib, 81 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb.

Tədris dili üzrə bilik səviyyəsinin qənaətbəxş olmaması səbəbi ilə 41, təhsil ölkəsində tələb olunan minimal müddətin ödənilməməsi, həm də tədris dilinin qənaətbəxş olmaması səbəbi ilə 20, tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində kifayət qədər olmaması səbəbi ilə 15, digər səbəblər üzrə 5 nəfərin müraciətə mənfi qərar verilib.

Ölkələr üzrə müraciətlərin sayına nəzər saldıqda Türkiyədən 95, Rusiyadan 89, Ukraynadan 87, Gürcüstandan 19, Böyük Britaniya və Şimali İrlandiya Krallığından 8, digər ölkələrdən isə 40 müraciətin olduğu müşahidə olunur.

Ən çox müraciət olunan ixtisaslar isə iqtisadiyyat üzrə 44, hüquqşünaslıq üzrə 43, tibb üzrə 17, biznesin idarə edilməsi üzrə 14, stomatologiya üzrə 12 nəfər müraciətçi qeydə alınıb.

Qeyd edək ki, sənədlərə ortalama baxılma müddəti 23 gün təşkil edib. Əlavə olaraq bildiririk ki, vətəndaşlar xarici ali təhsil ixtisaslarının tanınması üçün *www.tanınma.az* keçidinə daxil ola bilərlər.

## FLL mühəndislik və robot texnologiyaları yarışı keçiriləcək

Təhsil Nazirliyi və "Edumedia" şirkətinin birgə təşkilatçılığı ilə məktəblilər arasında "First Lego League Azərbaycan" (FLL) mühəndislik və robot texnologiyaları yarışı keçiriləcək.

FLL şagirdləri elm, texnologiya, fizika və riyaziyyat dünyası ilə tanış edən turnirdir. Şagirdlər bu turnirdə iştirak edərək gələcək elm insanları və mühəndislər üçün lazım olan tənqidi düşüncə, qeyri-standart üsullarla problemlərin həll olunması, bununla yanaşı, komanda şəklində işləmək kimi vacib bacarıqları inkişaf etdirirlər.

Bu il keçirilən turnirin mövzusu "CITY SHAPER" adlanır. Turnirdə iştirak üçün 10-16 yaşlı şagirdlər komanda şəklində şəhərqurma üzrə tədqiqat aparmalı, "Lego Midstorms EV3" xüsusi dəstlərindən istifadə edərək mövzu üzrə elan edilmiş missiyaları həll etmək üçün robot yığmalı, onu proqramlaşdırmalı və yaradıcı yanaşma nümayiş etdirməlidirlər.

Yarışda iştirak etmiş bütün şagirdlər medal və sertifikatlar, müxtəlif kateqoriyalar üzrə qalib gələn komandalar isə kuboklarla təltif olunacaqlar.

Yarış haqqında daha ətraflı məlumat almaq və qeydiyyat üçün *http://www.fllazerbaijan.org/* internet səhifəsinə müraciət etmək mümkündür.



# Qalib AZƏRBAYCAN azad QARABAĞ!

**AZƏRBAYCAN**

**bu gün çoxəsrlik tarixinin ən Şanlı və qüdrətli dövrünü yaşayır. Zəfər Gününün doğurduğu milli qürur hissindən insanın hansı duyğular keçirdiyini, nə qədər fərəhləndiyini sözlə ifadə etmək olmur. QALİB ölkənin vətəndaşı olmaq olduqca qürurvericidir. Bizə bu qürurlu tarixi anları yaşadan ölkə Prezidenti cənab İlham Əliyevin, Müzəffər Azərbaycan Ordusunun böyük Qələbə müjdəsi xalqımızın qəlbində əbədi qəhrəmanlıq dastanına çevrilib. 44 günlük Vətən müharibəsi göstərdi ki, xalqımız nə qədər qüdrətli, mətin, torpağını sevən bir xalqdır. Öz qanları ilə tarix yazan Şəhidlərimiz rahat uyuya bilərlər. Onların bizə miras qoyub getdiyi Qalib Azərbaycan gündən-günə çiçəklənir, güclənir. Elə Zəfər Günü ərəfəsində sevinc dolu anlarımızı bu şanlı tarixi-siyasi prosesləri yaxından izləyən, həmin günləri dəqiqə-dəqiqə, saat-saat yaşayan elm, təhsil, mədəniyyət nümayəndələri ilə də bölüşdük.**

## “Ali Baş Komandanımız Ulu Öndərin arzularını gerçəkləşdirdi”

Professor Şahlar Əsgərov Zəfər Günü ilə bağlı duyğulu təəssüratlarını bizimlə bölüşüb. O, ulu öndər Heydər Əliyevin sözlərinə diqqət çəkdi: “Əgər bir azərbaycanlı ilə bir ermənini təkbətək meydana salsan, azərbaycanlı heç vaxt kürəyini yerə verməz. Heç vaxt! Amma millətimizi bu cür qəhrəman etmək bir iki adamın işi deyildir. Bu, xalqın hamısının birlikdə işidir və xalqa rəhbərlik, başçılıq, sərkərdəlik edən adamların işidir”.

Şükürlər olsun ki, 44 günlük Vətən müharibəsində xalqımız, ordumuz, əsgərlərimiz, Ali Baş Komandanımız ulu öndərin arzularını gerçəkləşdirdi.

Müharibə zamanı Azərbaycan xalqı Allahın xoşuna gələn Zəfəri təmin edən portretini çəkdi. Bu portretdə xalqımızın əsas xarakterik cizgiləri əks olunub:

* Ana öz oğlunun tabutu qabağında oynadı;

* Nərgül bacı bir həftə içərisində həm şəhid ərinin, həm də şəhid qardaşının cənazəsini çiynində daşıdı;

* General əsgərinə bu mənim qardaşımdır, dedi;

* Bahar ana şəhid oğlunun məzarı başında ikinci oğlum da bu Vətənə qurban dedi;

* Azərbaycan ordusunda fərarilik müşahidə edilmədi. Və bunun kimi... Belə keyfiyyətləri saymaqla qurtarmaz...

Müzəffər Ali Baş Komandan İlham Əliyev: “Mən bu gün ulu öndər Heydər Əliyevin qəbrini ziyarət etdim. Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim ki, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik”. Üstəlik dedi:

Əziz Şuşa, sən azadsan!

Zəfərdən sonra ölkə Prezidenti dünyaya bəyan etdi:

* Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini təkbaşına yerinə yetirdik;

* 30 ildə bizi başa düşməyənlərə 30 gündə çox şey başa saldıq;

* Biz yeni reallıq yaratmışıq. İndi hər kəs yeni reallıqla hesablaşmalıdır;

* Biz Azərbaycan xalqını qürurlu, cəsarətli, yenilməz xalq kimi təsdiqlədik.

Qarabağ müharibəsi erməni toplumunun xüsusiyyətlərini çılpaqlığı ilə ortaya qoydu. Bu müharibədə ermənilər toplum olaraq öz mənfur portretini çəkdilər. Ermənilərin çəkdiyi əcaib portret Allahın xoşuna gəlməz. Ermənilər qeyri-insan, anti insanı cizgilərlə dolu, barbar, vəhşi, paxıl, şəhərləri, kəndləri, məktəbləri, xəstəxanaları, meşələri, bağları-bağçaları viran edən bir toplumun portretini çəkdilər. Ermənilər özlərini nə Allah bəndəsi kimi, nə də qafqazlı kimi apardılar. Özlərinə hər cəhətdən rüsvayçı, Matenadaranda saxlanılası mümkün olmayan bir tarix yazdılar.

Qarabağda quruculuq dövrüdür. Bu yerdə yadıma böyük Hüseyn Cavidin məşhur misrası düşdü: Talenin hökmünü poza bilsəydim həmən, Onu öz arzumla , niyyətimlə yazardım yenidən. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev ermənilərin yerlə yeksan etdiyi Qarabağı öz arzusuna, niyyətinə uyğun olaraq yenidən tikir, yenidən qurur. Kəlbəcərli şair Məmməd Aslan bu dünyadan nigaran köçəndə yazmışdı: “Çilikləndi telli saz, getdi ruhunda avaz... O Kəlbəcər qayıtmaz, qayıtsa yüz Kəlbəcər”. Əziz Məmməd, rahat yat. İndi Qarabağda ağıllı şəhər, ağıllı kəndlər salınır. Bu işdə Ali Baş Komandana Allah köməyi olsun. Şərqin müdrük adamları deyiblər ki, hər qüdrətli kişinin arxasında qeyrətli bir qadın dayanır.

Fikirlərimə birinci xanım Mehriban Əliyevanın bir düası ilə son verirəm: “Allah hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin”.

## “Bayrağımız hər zaman zirvələrdə dalğalanacaq”

Xalq artisti, Azərbaycan Milli Konservatoriyasının professoru Mənsum İbrahimov da zəfər dolu günlərin xoş anlarını yaşadığını deyir: “Biz bu Zəfər Gününü 30 il gözləmişik. Bir millət olaraq, bir xalq olaraq 30 ilə bu günə qədər addım-addım gəlmişik. Ali Baş Komandanımız güclü bir ordu quraraq, öz qətiyyətli siyasəti ilə bax bu günü yetişdirdi. Ali Baş Komandanımızın əmri ilə 27 sentyabrda Müzəffər Ordumuz əks hücuma keçərək 44 gün ərzində bir dastan yazdı. Qarabağı və tarixi torpaqlarımızı bizə qaytardı. Biz 30 ilə yaxın idi ki, çox əziyyət çəkirdik. Bir milyona yaxın məcburi köçkünümüz və qaçqınımız var idi. Amma bütün bunlara baxmayaraq biz sınmadıq, yıxılmadıq, bir dövlət olaraq heç kimə, heç bir dövlətə əyilmədik. Öz gücümüzlə, alnımızın təri ilə torpaqlarımızı azad etdik. Biz bir millət olaraq xalq, dövlət birliyinin sayəsində bu zəfəri qazandıq. İgid Şəhidlərimizin, qazilərimizin canları, qanları bahasına qazandıqları zəfər bizə əbədi bir miras olaraq qalacaq.

İndi biz işğaldan azad olunan torpaqlarımızda quruculuq işləri görürük. Şuşamıza “Zəfər yolu” çəkmişik. Füzulimizdə böyük bir Beynalxalq Hava Limanı tikdik və artıq açılışını da elədik. Yollar çəkirik, tunellər tikirik, ağıllı kəndlər salırıq. Bu, böyük bir qürur hissidi. Bəlkə də bunlar bir il yarım bundan əvvəl bizə yuxu kimi gəlirdi. Biz artıq işğaldan azad olunmuş rayonlarımıza sərbəst gedirik. Necə ki, müharibə vaxtı biz birləşərək zəfər qazandıq, bu gün də birləşərək, bir millət olaraq Qarabağın yenidən quruculuğuyla məşğuluq. Zəfərimiz, qələbəmiz əbədidir və bizim bayrağımız hər zaman zirvələrdə dalğalanacaq.

Eşq olsun Azərbaycan dövlətinə, eşq olsun Ali Baş Komandanımıza, eşq olsun Azərbaycan əsgərinə! Zəfərimiz əbədi olsun!

## “Ömrümün sonunadək sevinc hissilə yaşayacağam”

Əməkdar müəllim Asif Cahangirov: “2020-ci ilin 27 sentyabrı elə bil dünən imiş. Sübh tezdən dostum Ramizlə ənənəvi gəzintiyə çıxmışdıq. Novxanı bağlarının üstündən bir neçə təyyarəmizin göydəki manevri hər ikimiz üçün gözlənilməz və qeyri-adi göründü. Bir az keçmiş öyrəndik ki, II Qarabağ müharibəsi, Vətən müharibəsi başladı.

Çox böyük həyəcan içində idik, lakin bu anın nə vaxtsa gələcəyinə şübhə etmirdik. “Ya Qarabağ, ya ölüm!” bizim üçün adi söz yığını deyil, torpaqlarımızın 32 illik hayqırtısı idi.

Səmimi deyirəm, Şuşada, Tuğda, Füzulidə, Ağdamda nə vaxtsa bir daha olacağıma xəyal edirdik. Tariximizdə unudulmaz iz buraxmış ulu öndər Heydər Əliyev və ölkəmizin başçısı İlham Əliyev həmişə vurğulayırdılar ki, Azərbaycan sülh tərəfdarıdır, lakin doğma torpaqlarımızın qaytarılması üçün onlar bütün imkanlardan istifadə etməyə hazırdırlar.

Anlayırdım ki, heç bir kompromis mümkün olmayacaq, deməli, torpaqlarımız nə vaxtsa qan hesabına qaytarılacaqdır. Mütləq qaytarılacaqdır! Buna qəti şübhə etmirdim, amma həmin anların şahidi olacağıma inamım yox idi. Bu misilsiz xoşbəxtlik anlarını yaşadım və ömrümün sonunadək sevinc hissilə yaşayacağam! Rəşadətli Ordumuzun, bir dəmir yumruq kimi birləşmiş xalqımızın, Ali Baş Komandanımızın qələbə əzmi sayəsində! Bəli, doğma torpaqlarımız uğrunda savaşa bütün millət qalxmışdı!

Televiziya ekranlarında ölkə Prezidenti İlham Əliyevin işğaldan azad olunmuş rayon mərkəzlərində əsli həmin rayonlardan olan ictimaiyyət nümayəndələri ilə silsilə görüşlərini hamımız fəxarət hissilə izləyirdik. Hadrut qəsəbəsində keçirilmiş görüşdə mən də iştirak etmişdim.

Çox səmimi mühitdə keçən görüşümüz zamanı Prezident Hadruta, Tuğa dair suallar verir, bu ərazilərin inkişaf perspektivləri haqqında öz baxışları ilə bölüşürdü. Onun bizi dədə-baba yurdumuz olan Tuğ kəndinə dəvət etməsi, bizimlə birlikdə Tuğu gəzməsi, kəndin bənzərsiz gözəlliyi barədə iftixarla danışması hamımızın ürəyindən oldu.

Yeri gəlmişkən, fürsətdən istifadə edib hörmətli Prezidentdən nəsillərimizin böyük oğulları, Tuğ kəndində dünyaya gəlmiş Cavad bəy Məlik-Yeqanovun və Xudadat bəy Məlik-Aslanovun xatirələrinin əbədiləşdirilməsi barədə təkliflərimi də bildirdim.

Sözsüz ki, Qələbəmiz Vətən uğrunda canlarından belə keçməyə hazır olan hər bir əsgər və zabitimizin, əfsanəvi qəhrəmanlar böyütmüş ana-atalarımızın, əsl vətənpərvərlər yetişdirmiş müəllimlərimizin, bütün Azərbaycan xalqının sayəsində qazanılmışdır. Xalqımızla, Rəşadətli Ordumuzla birlikdə Müzəffər Ali Baş Komandanımız İlham Əliyev Qalib Azərbaycanın Şanlı tarixini yazdı. Allah Şəhidlərimizə rəhmət eləsin! Qarabağ Azərbaycan olub və həmişə Azərbaycan olacaq!

## “Alnımızdakı məğlubiyyət ləkəsi təmizləndi”

Respublikamızın Əməkdar artisti Təyyar Bayramov: “Mən 15 yaşına qədər Ağdamda yaşamışam. Ağdam rayonunun Ağdam kəndində yaşamağımıza baxmayaraq demək olar ki, mənim uşaqlığım Şuşa, Laçın və Kəlbəcərdə keçib. Çünki, qohumlarımız orada yaşayırdı. Hər yay biz o bölgələrə gedərdik. Beləliklə, müharibə dönəmi - o qanlı-qadalı günlər yaddaşımda çox dərin izlər buraxıb. Ümumən xalq olaraq hər birimiz bu illərdə Qarabağ fəryadı edirdik. İndi musiqi səhnəsindəyik və elə efirim, çıxışım olmayıb ki, orada dörd repertuarımdan ikisi Vətən - Qarabağ mövzusunda olmasın. Allaha şükürlər olsun ki, artıq neçə illərdir işğal altında olan torpaqlarımız azaddır. On illərlə sürən sülh danışıqları dönəmində Müzəffər Ali Baş Komandan qüdrətli və müasir silahlı yenilməz ordu qurdu. El sözüylə desək, “bıçaq sümüyə dirənəndə” sentyabrın 27-si 2020-ci ildə Azərbaycanın qüdrətli ordusu mənfur düşmənlərimizə qətiyyətli cavab verməyi lazım bildi, 44 günlük savaşdan sonra torpaqlarımızı azad etdi. Hansı ki, əziz vətənimizin talan olmuş kənd və qəsəbələrində üçrəngli bayrağımız dalğalanır. Bu, həm əsgərimiz, həm də bütövlükdə millətimiz üçün çox qürurverici işdir ki, alnımızdakı məğlubiyyət ləkəsi təmizləndi.

**Niyazi RƏHİMOV**

# "Qalibiyyət möhtəşəm duyğudur"



Emin Mövsümov 5 sentyabr 1980-ci ildə Şabran rayonunun Gəndov kəndində anadan olub. Elə həmin kənddə orta təhsilini başa vuran E.Mövsümov 1998-ci ildə ADPU-nun Tarix fakültəsinə qəbul olunub. Ali məktəbi bitirdikdən sonra 2002-ci ildə Cəlilabad rayonunda N saylı hərbi hissədə xidmətə başlayıb. Xidmət müddəti başa çatdıqdan sonra təlimlərə davam edərək leytenant rütbəsinə yiyələnib. O, 2003-2009-cu illərdə Gəndov kənd tam orta məktəbində tarix müəllimi, 2009-2011-ci illərdə həmin məktəbin direktoru vəzifəsində çalışıb. 2011-ci ildən isə Şabran Rayon Təhsil Şöbəsinin müdiri kimi fəaliyyətini davam etdirir. 2020-ci ilin sentyabrından başlanan 44 günlük Vətən müharibəsinin iştirakçısı olan E.Mövsümov ölkə başçısının Sərəncamı ilə "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilib.

**Cəmiyyətin həyatında ən önəmli rollardan biri, bəlkə də birincisi olan müəllim obrazı ən yeni Azərbaycan tarixinin zəfər dönəmində də qaynar nöqtədə idi. Bizə zəfəri qazandıran döyüş meydanında həm də Azərbaycan müəlliminin ayaq izləri var. Şagirdlərinə vətənpərvərlik duyğuları aşılayan, onları gələcəyin əsgəri kimi yetişdirən müəllimin öz şagirdləri ilə çiyin-çiyinə döyüşdüyü bir savaş qalibiyyətsiz bitə bilməzdi əlbəttə. Məhz həmin müəllimlərdən biri - Şabran Rayon Təhsil Şöbəsinin müdiri, ixtisasca tarix müəllimi Emin Mövsümov müsahibimizdir.**

## Emin Mövsümov: "Biz bu anı çoxdan gözləyirdik"



### "Biz işğalın ağrısı ilə böyümüşük"

- *Emin müəllim, Vətən müharibəsi dövründə sizin adınızı demək olar ki, eşitməyən qalmamışdı - "Rayon Təhsil Şöbəsi müdiri ordu sıralarında". Necə oldu ki, hərbi xidmətə yollanmaq qərarına gəldiniz?*

- Mənim uşaqlığım müharibə vaxtına düşüb. Biz müharibənin, işğalın ağrısı ilə böyümüşük. Barbar qonşumuzun təcavüzü, öz yurd-yuvalarından didərgin düşən həmvətənlərimizin, şəhid ailələrinin acıları bizi artıq vətən qarşısında böyük məsuliyyəti olan vətəndaşlar kimi yetişdirirdi. O təcavüzdən doğan nifrətlə böyüyürdük. Qisası alınmalı olan qanlarımız, geri qaytarmalı olduğumuz torpaqlarımız var idi.

"...Ali Baş Komandan tərəfindən qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatı başlaması barədə qərar verilib...". Biz bu anı çoxdan gözləyirdik.

Müharibə başladı, demək olar hər gün döyüş bölgəsinə gedən əsgərləri yola salırdıq. Onların arasında şagirdlərim, iş yoldaşlarım, dostlarım var idi. O duyğuları ifadə etmək olmur. Hansı ki, onları yola salanda əl eləmək o qədər az gəlirdi ki, sadəcə sən də orada əyləşib getmək istəyirdin. Əminəm, orada hamı belə hisslər keçirirdi. Bilirsiniz, müharibə vaxtı bizim nə əsgərlərimizdə, nə insanlarımızda ruh yüksəltməyə ehtiyac yox idi. Bunu görmək və duymaq sadəcə insanı qürurlandırırdı. Hər yolasalmada əsgərlərə uğur arzulayıb yaxın zamanda gələcəyimi deyirdim. Amma gedənə qədər də boş dayanmaq olmazdı. Bütün ölkədə olduğu kimi bizim rayonumuzda da "Əsgərə dəstək" kampaniyaları başladıldı. Bütün təhsil işçilləri, hətta məktəblilər kampaniyada fəal iştirak edirdilər. Mən özüm ATİAHİ Şabran Rayon Komitəsinin sədri ilə cəbhə bölgəsinə sovqat apardım. Qayıtdıqdan sonra digər yardım səfərinin vaxtını planlamağa və hazırlıq görməyə başladım. Belə oldu ki, növbəti sovqat artıq mənim arxamca gəlməli oldu. Hə, 9 oktyabrda mən ordu sıralarına yollandım.

### "Şagirdlərinlə çiyin-çiyinə vuruşmaq ən gözəl dərsdir"

- *Şagirdlərinizə gələcəyəm demişdiniz və getdiniz...*

- Getməli idim və getdim...Hamı kimi. Orada olanda hiss edirdim ki, hamı məni sosial mediada barəmdə yazılanlardan tanıyır. Bəziləri yaxınlaşıb bu barədə deyirdi. Onu da hiss edirdim ki, orada olmağım əsgərlərə stimul verir. Xüsusən də şagirdlərimə. Onlardan bəziləri ilə bir arada idik.

Vətənpərvərlik duyğuları aşıladığın, vətənin azadlığı üçün gözünü qırpmadan irəli atılmağı öyrətdiyin, döyüşə yola saldığın şagirdlərinlə çiyin-çiyinə vuruşmaq , "verdiyim bütün öyüdlər, keçdiyim bütün dərslərlə yanınızdayam, yolumuz birdir" mesajı vermək bir müəllim üçün misilsiz situasiya və verə biləcəyi ən gözəl dərsdir.

### "Ancaq qələbə düşünürdük"

- *O torpaqlara qədəm qoyanda hansı duyğuları keçirdiniz?*

- Tarixi bir anın ortasında... O anda hər şey təsəvvürümdə cəmlənmişdi; o torpaqlarda illər öncə axan şəhidlərimizin qanı, öz doğma ocaqlarını qoyub qaçmağa məcbur olan həmvətənlərimin vahiməli təlaşı, qələbənin nəfəsi...

Başqa çox duyğu yox idi. Sanki bütün duyğuları unutmuşdum, yalnız vətənpərvərlik duyğusu ruhuma hakim olmuşdu. Təkcə məndə yox, hamıda belə idi. Hamımız ancaq irəli, ancaq qələbə, ancaq azadlıq düşünürdük, ancaq torpağı duyurduq.

- *Orada komandir kimi qiymət verdikdə əsgərlərinizin məktəb tərbiyəsi sizi qane edirdimi? Bir təhsil şöbəsi müdiri olaraq təlim-tərbiyənin təşkilinə rəhbərlik etdiyinizə görə bu işin öhdəsindən nə dərəcədə gəlmiş olduğunuzu təhlil etmisinizmi?*

- Vətənpərvərlik tərbiyəsi mövzusunda əlavə çox şərhə yəqin ki, ehtiyac yoxdur. Hər şey göz qabağında idi; ölkənin müəllim ordusu vətənpərvər gənclər - igid əsgərlər yetişdirməyi bacarmışdı. Əsl vətənpərvər özünü həm də əsgər olaraq yetişdirməli, tərbiyələndirməlidir. Əsgər isə ən ekstremal şəraitə belə uyğunlaşmağı bacarmalıdır.

Bayaq qeyd etdim, müəllimlərimizin vətənpərvərlik tərbiyəsi mövzusundakı nailiyyətini. Sadəcə dediyiniz təhlil zamanı onu da aşkarladım ki, bizim əsgərlərdəki vətən eşqi, azadlıq şövqü, cəsurluq, qorxmazlıq təkcə tərbiyələndirmə ilə bağlı deyil, bu xüsusiyyətlər həm də onların genlərindəndir.

Qubadlı azad edildikdə mənə önəmli bir posta getmək tapşırılmışdı və özümlə sadəcə iki əsgər götürməli idim. Amma bütün əsgərlərim mənimlə getmək istəyirdi. Buna görə biz əlavə bir neçə nəfər də götürməli olduq. Oraya gedərkən onlar bir an belə qarşılaşa biləcəyimiz təhlükədən, hansısa düşmən tələsindən qətiyyən qorxmurdular, məndən belə öndə getməyə can atırdılar. Onda mən bir daha əmin oldum ki, vətənpərvər gənclərlə vətənin beli heç vaxt əyilməz.



### "Zəfər daim bizim olsun"

- *Qarşıdan Zəfər Günü gəlir...*

- Bəli, artıq Şanlı Zəfərimizin ildönümü yaxınlaşır. Müharibədən, şəhidlərimizin şəhadətindən, uzunmüddətli işğaldan sonra torpaqlarımızın azadlığa qovuşmasından bir il keçir. Qalibiyyət möhtəşəm məfhum, müdhiş duyğudur. Bu vaxta qədər məktəblərdə torpaqlarımızın işğal edilmə ildönümlərində tədbirlər keçirir, söhbətlər aparır, həmin günləri nisgil, ağır bir yük, ürək ağrısı ilə qeyd edirdik. Bu gün isə, bütün o yüklərdən qurtulmuş, artıq torpaqlarımızın azadlığa qovuşmasının ildönümünü qeyd edirik.

İndi də ürəyimizdə bir sızı var - şəhid olan silahdaşlarımızın bu günü görməməsi. Amma hamımız bilirik ki, "Torpaq, uğrunda ölən varsa vətəndir!". Əminik ki, onların ruhları şaddır.

Qarşıdan Zəfər Günü gəlir və hər bir azərbaycanlının qəlbində bir fərəh var. Biz bacardıq... Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə biz "Dəmir yumruq" olmağı bacardıq, şəhidlərimizin qanını yerdə qoymadıq, torpaqlarımızı geri aldıq, həmin "Dəmir yumruq"la düşməni yerində oturtduq. Bütün dünyaya gücümüzü nümayiş etdirdik. Bir daha sübut etdik ki, bizim olan gec və ya tez bizə qayıdır. Heç nəyi unutmadıq, unutmarıq!

Mən öz növbəmdə bütün Azərbaycan xalqını, Ali Baş Komandanımızı, Azərbaycan Ordusunun bütün şəxsi heyətini möhtəşəm Zəfərimizin ildönümü münasibətilə təbrik edirəm! Qoy Azərbaycan bayrağı əbədi olaraq yüksəkliklərdə dalğalansın, Zəfər daim bizim olsun!

**Gülər MİRZƏYEVA,**
*Şabran RTŞ-ın İctimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# AL BAYRAĞIM, DALĞALAN!

## Al bayrağım



**Mahirə HÜSEYNOVA,**

*ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya üzrə elmlər doktoru, professor*

Xalqımızın gəldiyi yolun sinə dəftərin,
Göyərən arzuların, al bayrağım, dalğalan!
Yüksəlişin-əlacı sağalmamış dərdlərin,
O dərdləri yadına sal, bayrağım, dalğalan!

Min illərdir içimiz rənglərini göyərdir,
Yaşamaq haqqımızın əbədi rəmzisən bir.
Ruhumuz-qəlbimizdə asılan dirəyindir,
O dirəkdə uca dur, qal, bayrağım, dalğalan!

Qəlbimizdə oxunan türkülərlə yarandın,
Altaylardan salınan körpülərlə yarandın.
Sabahlara aparan ümidlərlə yarandın,
Al bizləri qoynuna, al, bayrağım, dalğalan!

Qılıncında Babəkin, Nizaminin şeirində,
Yaşadın susmayacaq vətən nəğmələrində.
Qarşında baş əyən var dünyanın hər yerində,
Oğulun var, qızın var, var, bayrağım, dalğalan!

Hopub, bağrına hopub, hopub şəhid qanları,
Sənə bürünüb gəlib min-min yurd qurbanları.
Dədə əmanətisən-qızları, oğlanları
Bu vətənin səninçün yar-bayrağım, dalğalan!

Azərbaycan əsgəri qanım halaldır-dedi.
Ucada dayanmağın bir cəh-cəlaldır-dedi.
Gücünün qarşında düşmən olan əyildi,
O bilir ki, olacaq xar, bayrağım, dalğalan!

## Vətəndir

Bu vətən deyilən torpaq deyil ki,
Ananın dizinin yanı-vətəndir.
Başını qoymağa bir sinə varsa,
Ruhuna beşiksə, tanı, vətəndir.

Dünyanın sirri bir, sualları çox,
Boy verən nə qədər... cavab verən yox.
Oğlunun, qızının gözü-könlü tox,
Bir ümid yerinin canı vətəndir.

Hər ağla gələnlər yığbala gəlməz,
Haqdan gəlməyəni yığ bala, gəlməz.
Sevənin günahı babala gəlməz,
Ürəyə can verən qanı vətəndir.

Kimə doğma dedin, kimə yad dedin,
Nə haray istədin, nə imdad-dedin?
Qürbətin havası verməz dad-dedin,
Adının hər adı-sanı vətəndir.

Qurduğun dünyanın hər daşı-vətən,
Ömrünün-gününün yoldaşı-vətən.
Mahirə, deməd qəm daşı vətən,
Dərmanın hardadır, hanı-vətəndir.




## Şəhid nəğməsi

Burdan yavaş gedin, asta keçin,
Qəbirlər titrəyər, daş dinə bilər.
Bir güllə gücünə sükut olanlar,
Bir addım səsinə diksinə bilər.

Boy vermiş məzarın qəbir daşları,
Bir ömrün daşlaşan arzu-kamıdır.
Onların sağlığı döyüşən əsgər,
Məzarı -Vətənin istehkamıdır.

Hər biri məşəldi qaranlıqlara,
Hər biri vətənin, elin gərəyi.
Bayraq götürmədi hamısı,amma,
Qaldırdı qəlblərdə bayraq dirəyi.

Yerə qan tökdülər, ruh göyərtdilər,
Tarixi yazdılar Vətən daşında.
Minillik xalqlara dərs öyrətdilər,
Bu ərən oğullar cavan yaşında.

Bir ana bətnindən düşüb, böyüyüb,
Min-min analara oğul oldular.
Hərəsi bir ocaq adından gedib,
Vətən ocağını qaladı onlar.

Şəhidlər, Şəhidlər, sabaha bu gün,
Canınızdan keçib, qurban verdiniz.
Millətə diz çöküb baş əymək üçün,
Şərəfli, müqəddəs ünvan verdiniz.

## Sərhəd qapısı

**(Müzəffər üçün yazılan şeir)**

Nə qədər dünyanı dolaşsaq da biz,
Yaxını, uzağı- boşdur hamısı.
Vətən- ürəyimiz, göz bəbəyimiz,
Adın ünvanımdır, Sərhəd qapısı.

Qüruru böylanar böyüklüyünün,
Adamlar gəzdirər ürəklərində.
Bütün ağırlığı Vətən yükünün,
Dayanar bu sərhəd dirəklərində.

Gecənin zülməti, qışın soyuğu,
Yağışı, qarı da oyun-oyuncaq.
Vətən keşiyinin nə olduğunu,
Sərhədçi anlayar, sərhədçi ancaq.

Yüz ölçü-biçisi qoca dünyanın,
Dolanar başına, bir həddən keçər.
Qanında bir qaşıq qeyrət olanın,
Ürəyi neçə yol sərhəddən keçər.

Beləcə yaşadın özün bilən dən,
Bilirəm, doğmadır hər əsgər sənə.
Ürək sözlərimi göndərirəm mən,
Bu bayram günündə, Müzəffər, sənə.

## Azərbaycan

**Azərbaycan -**
**Qayalarından uca,**
**Yaşımdan da cavan,**
**Dünyadan qoca...**

**Azərbaycan -**
**Nəsil-nəsil doğuluşum.**
**Külündən yaranan,**
**Mənim səməndər quşum.**

**Azərbaycan -**
**Xəzərin uca dalğası.**
**Min illərdir xalqımın**
**Yaşamaq qovğası.**

**Azərbaycan -**
**Baş əydiyim Tanrı.**
**Sənə kömək olsun,**
**Anamın duaları.**

**Azərbaycan -**
**Kürüm qədər lal, dəli.**
**Ahıllar qədər susqun,**
**Cahıllar qədər hikkəli.**

**Azərbaycan -**
**Göyərən ümidlərim.**
**Dərmanı,davasısan,**
**Min illik dərdlərimin.**

**Azərbaycan -**
**Ünvanı - növrağımın.**
**Əyilməyən dirəyisən,**
**Üçrəngli bayrağımın.**

Nizami Gəncəvi - 880

# Nizami Gəncəvi və söz





Ənvər ABBASOV,

*Təhsil İnstitutunun direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim*

Esse

Dahi Nizami Gəncəvi sözü ruha bənzədir. Onun nə qədər pak və təmiz olması fikrini söyləyir. İnsanın daxili aləmində bərqərar olduğunu, onun daxili mənini ifadə etdiyini göstərir. Şairə görə, bədən insanın daxili aləminə gedən yolda eyvandır.

*Söz eşqin lüğətində öz canımızdır bizim,*
*Biz sözük, bu bədənsə eyvanımızdır bizim.*

Şair sözü həm də dünyanın naxışı hesab edir. Onu gözəlliklərin yaradıcısı, varlığın əsrarəngiz bənzərsizliklərinin yaraşığı kimi dəyərləndirir. Həmçinin onun köhnə qızıldan daha qiymətli olduğunu söyləyir. "Sözdən incə, kəsərli heç nə yoxdur həyatda" - deyir.

İnsan maddi dünyanın varlıqları içərisində özünün mükəmməlliyi ilə fərqlənir. O daha çox ağlın və sözün gücü ilə pərvəriş tapır. Varlıqların içərisində bənzərsizliyi ilə nüfuz qazanır. Elə ona görə də Nizami Gəncəvi düşüncəsində insan dünyanın əşrəfi adını alır. Ən qiymətli varlıq kimi təqdim olunur.

İnsan həm də varlıqların əşrəfi kimi ona görə daha çox şöhrət qazanır ki, o, özünün mahiyyətində həm də Yaradana məxsus olan əlamətlərdən birini gəzdirir. Həmin bu əlamətlə özünün daxilindəki sirləri açа bilir, başqaları ilə təmasda olur. Ona özünün düşüncəsindən pay verir. Bu, sözdür. Sirli, sehirli bir aləm olan söz.

## Yoxdan var olan söz

Yoxdan var olan sözdə bir qeyri-adilik vardır. Söz görünmür, söz təsir edir, söz dəyişdirir. Söz yoxdan var ola bilir. Bütün bu özünəməxsusluqlar sözə yaraşıq verməklə, həm də ona bir qeyri-adilik, müqəddəslik bəxş edir. Sözü qüdsiyyəti olan təmiz, pak mənəvi varlığa çevirir. Sözlər çox olsa da, onların bir kəlmə kimi vahidliyi-ünsiyyət aləmini yarada bilməsi ecazkardır.

Dünyada hər şey - bütün maddi aləm, onun ən kiçik hissələrinə qədər olanlar sözlə adlandırılır, sözlə var olur. Onu mənasız yerə işlətmək yasaq hesab edilir. Çünki hər sözü çox dedikdə onun təsir gücü azalır. Söz ucuzlaşır. Tutduğu zirvədən aşağı enir. Ona görə də dahi Nizami Gəncəvi bu lətif gözəlliyi məhəbbətlə vəsf edir, onu az söyləməklə şərəfləndirməyi məsləhət görür.

*Sözün də su kimi lətafəti var,*
*Hər sözü az demək daha xoş olar.*
*İnci tək sözlər seç, az danış, az din,*
*Qoy az sözlərinlə dünya bəzənsin.*

Çünki sözdən zaman-zaman bəhs edənlər belə qənaətə gəlmişlər ki, "sözdür həm təzə şey, həm də köhnə şey". Varlığın anası ondan gözəl övlad dünyaya gətirməmişdir.

## İlahi varlığın poetik obrazı

Nizami Gəncəvi sözə ilkin varlıq kimi baxır. Onu dünya yarandığı vaxtdan bu günə qələmin yazdığı birinci söz adlandırır. Həm də cilvələnən bir gözəl kimi dəyərləndirir. Sirli dünyanın yaranışında ilkin gözəl kimi kəşf edir.

Qələmin sehiri onun sözlə münis olmasındadır. Söz yoxdursa, qələm də yoxdur. Dünyanı incilərlə bəzəyən, qələmin qeyri-adiliyində bir heyrətamiz gözəllik var. O, incə və saf duyğuları tərənnüm etməkdən yorulmur. İnsanların əxlaqi-mənəvi dünyasını zənginləşdirərək, onların bəsirət gözünü açmaq üçün sözlə ülfət bağlayır. Nizami Gəncəvi bu ilahi birliyin poetik obrazını yaratmaqla onun daha şərəfli olmasını qeyd edir. Onların hər ikisində bir eyniyyət görür.

*Yer üzündə incini sözlə seçibdir qələm,*
*Kainatın gözünü sözlə açıbdır qələm,*
*Dünyaya sözdü şərəf, gör ki, nadir qiyməti.*
*Danışmaqla, yazmaqla itməz qədir-qiyməti.*
*Tacidar tac sahibi sözü sanıb cahanda,*
*Ariflər söz qədrini sözlə anıb cahanda.*

## Düşüncənin munisi

Söz hər şeydən üstündür. Bütün qiymətlilərin qiymətlisidir. Ariflər də ona möhtacdır. Onlar hər zaman özlərinin mükəmməl məntiqini, ağıllı düşüncələrini onunla bəyan edirlər.

Nizami Gəncəvi də sözü düşüncənin munisi, sirdaşı hesab edir.

*Düşüncənin munisi, gözəl sirdaşı sözdür,*
*Unutma ki, insanın əzəl sirdaşı sözdür.*

## "Söz dünyadan gözəldir..."

İnsanla birgə şərəflənən söz həm də əbədi, əzəli sirdaşıdır. İnsanlar özlərini sözlərlə gizlədə, həm də ifadə edə bilirlər. Sözlərin mənalar aləminə qapanır, onun gözəlliklərindən zövq alırlar.

*Söz dünyadan gözəldi, söz həyatdan gözəldi,*
*Qövsi-qüzehli göydən, kainatdan gözəldi,*
*Yer üzündə tapılmaz sözün rəngi-boyası,*
*Dilə gəlməz tərifi, dili aciz qoyası.*

Dahi Nizamiyə görə, sözün təsvirəgəlməz, bənzərsiz gözəlliyi vardır. O, həyatdan, dünyadan gözəldir. Hətta ulu göylərin al-əlvan gövsi-quzehindən belə gözəldir. Onda ilahi bir qüdrət, yaradana məxsus bir təravət vardır. Solmazlıq, parlaqlıq, mənalılıq onunla birgə var olmuşdur. İnsanlar bu qüdsiyyətin haləsində pərvanə kimi dolaşırlar, onun məhəbbəti ilə yaşayırlar.

Yer üzündə sözün gözəlliyinin bərabəri yoxdur. Bu gözəlliyi tərif eləməkdə dil acizdir.

*Söz hər yerdə hakimdir, hamıdan baş da odur,*
*Dünyanın sərvətidir, inci daş-qaş da odur.*

Sözü dünyanın naxışı hesab edən şair həm də onu dünyanın misilsiz sərvəti adlandırır. Bu sərvət insan övladının şəxsində özünü göstərməklə bitməzlik, tükənməzlik nümunəsi kimi insanla təmasdadır. Əsl inci, daş-qaş sözün qənirsizliyi ilə daha aydın görünür.

Söz həm də hökmü-fərmandır, hakimi-mütləqdir. Hamıdan birinci odur. Yığcamdır, lakonikdir, həm başlanğıcı, həm də sonluğu təmsil edəndir. Söz əməllərə rəvac verəndir, irəliləyişlərə dəstək olandır. İnsanlığa töhfə verəndir.

## İsmət pərdəsinə bürünən gözəl

Söz məna dolu mübhəm gözəlliyini gizlədə bilir. İsmət pərdəsinə bürünərək cahillərin gözündə görünməz olur. Rübəndini açaraq kamil insanlara məna bəxş edir. Onların sevinc hisslərini coşdurur. Yaşamaq, yaratmaq həvəsini artırır. Məhz dahi Nizami Gəncəvi bu səbəbdən

*Camalını gizlədir, hicabı var sözündə,*
*Xəyaldır köləsinin, qullarının gözündə.*

- deyir.

O özünü sözü sevən, sözün aşiqi adlandırır. Həmçinin "onun ölüsü", "aşiqi" olduğunu fəxarət hissi ilə nəzmə çəkir. Həm də "onunla da diriyik" - deyə sözün canlılığına işarə edir.

*Biz ki, söz aşiqiyik, söz sevənin biriyik,*
*Onun ölüsüyük ki, onunla da diriyik.*

Söz həmişə diridir. Söz həmişə canlıdır. İnsanlar onunla canlanır, özünü ifadə edir. Varlığını göstərir.

## Söz ilkindir

Söz haqqında Nizaminin poetik düşüncələrində bir mühüm əzəli-əbədi məna vardır. Söz ilkindir, söz birincidir, söz başlanğıcdır. Əslində bu, ilahi bir düşüncənin məhsulu olan bir varlıqdır. Orada yaradılışın vahid bir düsturu görünür. Hər şey "ol" kəlməsindən yarandı. Həyat bir sözün təsiri ilə var oldu, mənalandı. Bu, Yaradanın insanlıq aləminə, bəşər övladına bir gözəl töhfəsi idi. Dünyanın varlıqları qiymətli bir üzük timsalında görünürsə, söz onun qiymətli bir üzük qaşıdır.

Söz misilsiz bir qüvvət mənbəyidir. Onda yaradıcı bir güc, qüdrət vardır. Paklıq, ülvilik, ilahi gözəllik bu yaradılışla bir olaraq dünyaya gəlmişdir. Ən böyük Həqiqətin, Haqqın ülfəti, qayğısı, sevgisi kimi yaranmışdır.

*İlk dəfə tərpənəndə sözdən güc aldı qələm.*
*Sözdən doğuldu ilk hərf, şahiddir bütün aləm.*
*Xəlvəti pərdəsini qaldırdılar, atdılar,*
*Öncə söz cilvələndi, sözdən can yaratdılar.*

Şairin misralarda sözün ilahi gücünü, ruhu, sözdən güc alan qələmi izləməsi, onlara rüsxət verməsi daha möhtəşəm görünür və söz haqqında düşünənlərin narahatlıqlarına bir rahatlıq gətirilir.

Danışa bilmək qabiliyyətdir. Onun böyük hikməti var. Bu hikmət insanlıq aləmində qiymətli bir xəzinə hesab edilir. İnsanlar öz sözləri ilə var olur, özünü göstərə bilirlər. Dahi Nizami insanlığa xas olan bu keyfiyyəti yüksək qiymətləndirirdi.

*Hər söz düşüncəylə deyilsin gərək,*
*Xərcləməzdən əvvəl qızılı bir çək.*

Yaxud

*Ağzında o qədər saxla ki sözü,*
*Yaxşı ad qazansın deyənin özü.*

## Gözəllik incisi

Söz bəlağət yaradan bir gözəllik incisidir.Ona böyük qayğı və diqqətlə yanaşmaq müdriklik və kamillik əlamətidir. Dahi Nizami bu cəhəti həmişə təqdir etmişdir.

*Mən sözü ölçməmiş demirəm əsla,*
*Sən də söyləyəndə söylə qiyasla.*

Söz məqamında gözəl olur, təsir edir. Seçilib misralara düzüləndə, qafiyələnəndə özünün füsunkar gözəlliyini daha da artırır. Poetik bir mənzərənin ormanına çevrilir.

## "Çalış ədəbli ol..."

Gözəl söz tapa bilmək ustalıqdır. İnsanlar seçdikləri sözlərində, ifadə etdikləri münasibətlərində görünürlər. Ona görə də dahi Nizami "Çalış ədəbli ol hər sözündə sən" - deyə belə bir qənaətə gəlir. Əgər sən ədəblə danışırsansa, o zaman səni dinləyən də ədəblə danışar. Şair yumşaq danışmağı ağillik, ağıllı bir iş, kobud danışmağı isə axmaqlıq hesab edir. Hər kəs özünü acı sözləri ilə alçaldır, başqalarının qarşısında üzr istəyən edir.

*Çalış ədəbli ol hər sözündə sən,*
*Ədəblə danışsın səni dinləyən.*
*Hər kəslə qaydasız danışma ki, sən,*
*Axırda utanıb üzr istəyərsən.*

Nizami söz mülkünün sultanıdır. Sözün incə mənalarını görən və ona valeh olan bir sənətkardır. O, söz aləmində gərdiş etdikcə təsirlənir, sözün misilsiz gözəlliklərindən ruhlanır, onun nəzm dilində al-əlvan guşələrini yaradır. Bu guşələrin hər biri sirli-sehrli bir aləmdir. Böyük yaradanın insanlara bəxş etdiyi ecazkar bir aləm. Bu aləm təcəllə aləmidir. Mənaların təsəllisi olan bir aləm. Bütün varlıq bu aləmin məna bağlarında görünür. Söz cilidinə girmiş bu məna bağlarında ilahi düşüncənin görsənişləri bərq vurur. Lakin insanların gözlərini qamaşdırmır, düşüncələrini dolaşdırmır. Əksinə, mənalarla zənginləşdirir. Onun mahiyyətinə, canına, ruhuna çevrilir.

## "Deyilməz sözləri danışma..."

Dahi Nizaminin bu sözlərindən böyük bir əxlaq, sözə bağlı məhəbbət süzülür. İnsanlar mənəvi bütövlüyə, yüksək mədəniyyətə, incə, yumşaq, mənalı söz axtarışına təşviq olunur. Doğrudur, dünyanın incisi olan söz həqiqətlərin, çağırışların nidası, hiss və həyəcanların carçısıdır. Hər bir söz öz haləsində xoşa gələndir. Lakin onları fikirlərin, duyğuların carçısına çevirəndə bəzən sərtləşir, qəlb sındırır, acılaşır. Şair bu məqamda diqqətli və ehtiyatlı olmağı, fikirlərini "başqa bir dil ilə" söyləməyi tövsiyə edir.

*Öylə söz vardır ki, yaramaz demək.*
*Başqa bir dil ilə söyləmək gərək.*
*Sözü incə-incə söylərkən bir-bir.*
*Ondan hər eşidən alar bir təsir.*

Hətta şair

*Bir söz ki, qaşlara düyün vuracaq.*
*Gözəl söz olsa da, söyləmə, burax*

- deməklə təəccüb doğuran, əhvalı pozan sözləri belə gözəl olsa da, işlətməməyi məsləhət görür.

Söz doğruluğun, həqiqətin carçısına çevriləndə qiymətli olur, dəyərləndirilir. Yalanı qanadlandıran, ona dəstək verən söz narazılıq, qəzəb və nifrət doğurur. Dahi Nizami demişkən

*Doğruluq yolunu tutmayan sözlər*
*Ay qədər ucalsa, qiymətdən düşər.*

Dahi Nizami həyatı boyu söz səltənətinin qonağı oldu. İlahi varlıq olan sözün ecazkar qüdrətinə sığındı. Və bu gün insanlar üçün ərməğan olan poetik söz çələngini yaratdı. Əsrlər keçəcək bu söz çələngi həmişə öz təravətini saxlayacaq, nəsillərdən nəsillərə ərməğanı olacaqdır.



# Heydər Əliyev adına liseydə Zəfər Günü qeyd edilib

Bakıdakı Heydər Əliyev adına liseydə Zəfər gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə liseyin müəllim-şagird kollektivi ilə yanaşı liseyin Şəhid məzunu Cavid Manafovun ailə üzvləri, Vətən müharibəsi iştirakçısı, döyüşçü Xəqani Orucov, Xətai Rayon İcra Hakimiyyətinin, KİV nümayəndələri, ziyalılar və digər şəxslər iştirak edib.

Öncə iştirakçılar Azərbaycan torpaqlarının işğaldan azad edilməsi uğrunda canlarından keçmiş Şəhidlərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edib.

Tədbiri giriş sözü ilə açan liseyin direktoru Sevinc Orucova qeyd edib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən, qətiyyətli siyasəti, güclü iradəsi, rəşadətli Azərbaycan Ordusunun və igid oğulların 44 günlük Vətən müharibəsindəki qəhrəmanlığı nəticəsində düşmən tapdağı altında olan torpaqlarımız işğaldan azad edilib. S.Orucova bu şanlı qələbə yolunda canlarından keçən bütün şəhidlərimizin qarşısında baş əydiyini, qazilərimizə Allahdan şəfa dilədiyini bildirib.

Tədbirdə çıxış edən Vətən müharibəsi iştirakçısı Xəqani Orucov müharibə ilə bağlı xatirələrini iştirakçılarla bölüşüb. O, Müzəffər Azərbaycan Ordusunun, igid oğullarımızın qəhrəmanlıq salnaməsindən danışıb.

YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə, "Zəfər tarixi" dərsliyinin müəlliflərindən-liseyin tarix müəllimi Hafiz Cabbarov da tədbirdə çıxış edərək həmin günlərlə bağlı təəssüratlarını bölüşüb.

Daha sonra liseyin şagirdlərinin ifasında şeirlər, musiqilər səslənib. Azərbaycan Ordusunun qəhrəmanlıqlarını əks etdirən videoçarx nümayiş edilib. Tədbirin sonunda iştirakçılar liseyin Şəhid məzunu Cavid Manafovun həyat və döyüş yolunu əks etdirən "Cavid otağı" ilə tanış olub.

**Niyazi RƏHİMOV**

# "Qarabağ Zəfəri - Şuşa"

**Bu günlərdə siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Zaur Əliyevin "Qarabağ Zəfəri - Şuşa" kitabı işıq üzü görüb. Kitab 44 günlük Vətən müharibəsindən qalib çıxan Azərbaycan Ordusu və Azərbaycan xalqının əzminə və qələbəsinə həsr edilib.**




Redaktoru pedaqogika üzrə elmlər doktoru, professor Hümeyir Əhmədov olan kitabda Azərbaycanın ən qədim şəhəri - Şuşanın tarixi və işğala qədər dövrü, 2020-ci ildə azad olunması və ondan sonra atılan addımlar araşdırılıb. Azərbaycan xalqının mədəniyyətində mühüm rol oynayan Şuşa şəhərində baş verən hadisələr, şəhərin iqtisadi, siyasi, tarixi, mədəni həyatı, arxiv sənədləri, yerli və xarici alimlərin tədqiqatlarının bilgisi ilə qələmə alınıb oxucuların önünə çıxarılıb.

Qeyd edək ki, yeni nəşr Zaur Əliyevin sayca 17-ci kitabıdır və burada dəyərli alimlərin, diaspor üzvlərinin rəyləri öz əksini tapıb.

Kitab geniş oxucu kütləsi və Qarabağ tarixini araşdıran tədqiqatçılar üçün nəzərdə tutulub.

# Mingəçevir Dövlət Universiteti Ukraynanın ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrini inkişaf etdirir

## MDU beynəlxalq əlaqələrin inkişafına xüsusi önəm verir



**Hazırda müasirləşmə mərhələsində olan Mingəçevir Dövlət Universitetində (MDU) akademik potensialın gücləndirilməsi və ali təhsil xidmətlərinin keyfiyyətinin yüksəldilməsi məqsədi ilə qarşılıqlı faydalı beynəlxalq əməkdaşlığın genişləndirilməsi diqqət mərkəzində saxlanılır. Bu çərçivədə MDU-da dost Ukraynanın qabaqcıl universitetləri ilə əməkdaşlıq əlaqələrinin qurulması və inkişaf etdirilməsinə xüsusi önəm verilir. Bu baxımdan cari ilin 27-29 oktyabr tarixlərində MDU-nun rektoru Şahin Bayramovun Ukraynaya səfəri əhəmiyyətli və məhsuldar fəaliyyətlərlə yadda qalıb.**

Oktyabrın 27-də MDU-nun rektoru Şahin Bayramov Ukraynaya səfəri çərçivəsində Kiyev Milli İqtisadiyyat Universitetinin (KNEU) rektoru Dmitri Lukyanenko ilə görüşüb.

MDU rektorunu KNEU-da salamlamaqdan məmnunluğunu bildirən D.Lukyanenko rəhbərlik etdiyi ali təhsil müəssisəsinin keçdiyi inkişaf yolu, beynəlxalq əməkdaşlığı, uğurları və məzunları haqqında ətraflı məlumat verib. Azərbaycan universitetləri, o cümlədən MDU ilə əməkdaşlığa böyük önəm verildiyini qeyd edən KNEU rektoru iki universitet arasında əməkdaşlığın inkişafı üçün zəruri imkanların yaradılmasına hazır olduğunu diqqətə çatdırıb.

Səmimi görüşə görə təşəkkürünü bildirən Ş.Bayramov Azərbaycan və Ukrayna arasında tarixi köklərə malik dostluq münasibətlərindən bəhs edib, Ukraynanın qabaqcıl universitetlərindən olan KNEU ilə işbirliyinin gücləndirilməsini iki ölkə arasında elm və ali təhsil sahəsində əməkdaşlığın inkişafına töhfə kimi dəyərləndirib.

MDU-nun strateji hədəfləri və kadr hazırlığı istiqamətlərindən söz açan Ş.Bayramov son dövrdə universitetin modernləşməsi istiqamətində görülən işlərdən bəhs edib. Sürətlə müasirləşməkdə olan MDU-da beynəlxalq əlaqələrin inkişafına xüsusi önəm verildiyini vurğulayan rektor 115 illik tarixi olan KNEU ilə əməkdaşlığın potensial istiqamətləri barədə fikirlərini bölüşüb, tələbə və müəllim mübadiləsi, ortaq təhsil proqramları, tədqiqatlar, elmi konfranslar, forumlar və digər müxtəlif istiqamətlərdə birgə fəaliyyətlərin perspektivlərindən danışıb.

Oktyabrın 28-də MDU rektoru Kiyev Milli İqtisadiyyat Universitetinin 115 illik yubiley mərasimində iştirak edib. Yubileydə Ukraynanın baş nazirinin birinci müavini və İqtisadiyyat naziri, Elm və təhsil nazirinin müavini, Mərkəzi Bankın və digər çoxsaylı dövlət qurumlarının nümayəndələri, xarici və yerli universitetlərin rektorları, özəl şirkətlərin rəhbərləri və universitetin tanınmış məzunları iştirak ediblər.

Yubiley iştirakçılarını salamlayan KNEU-nun rektoru D.Lukyanenko rəhbərlik etdiyi universitetin keçdiyi tarixi inkişaf yolundan və əldə edilən uğurlardan danışıb. Ukrayna ali təhsil məkanında KNEU-nun mövqeyinin ildən-ilə gücləndiyini vurğulayan D.Lukyanenko universitetdə kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi, elmi-tədqiqatların səmərəliliyinin artırılması, beynəlxalq əməkdaşlığın inkişafı və ali təhsil proqramlarının beynəlxalq akkreditasiyası istiqamətində görülən işlərdən və qarşıda duran strateji hədəflərdən bəhs edib.

Tədbirdə çıxış edən Ş.Bayramov dost ölkənin nüfuzlu ali təhsil müəssisələrindən biri olan KNEU-nun yubiley mərasimində iştirakdan məmnunluğunu ifadə edib və dəvətə görə universitetin rəhbərliyinə təşəkkürünü bildirib. Ukraynada ali təhsil sistemində özünəməxsus yerə malik KNEU-nun ölkənin biznes və iqtisadiyyat profilli aparıcı ali təhsil müəssisəsi olduğunu vurğulayan Ş.Bayramov hazırda tərəfdaş universitetin minlərlə məzununun milli iqtisadiyyatın ümumi inkişafına əhəmiyyətli töhfələr verdiyini diqqətə çatdırıb.

KNEU-nu 115 illik zəngin ənənələrin müasir tədris metodları və qabaqcıl tədqiqat vasitələri ilə qovuşduğu nümunəvi təhsil ocağı kimi xarakterizə edən Ş.Bayramov KNEU və MDU arasında qarşılıqlı faydalı əməkdaşlığın mövcud vəziyyətindən söhbət açıb.

Əlamətdar hadisə münasibətilə KNEU-nun rəhbərliyini və kollektiv üzvlərini MDU ailəsi adından təbrik edən Ş.Bayramov onlara yeni-yeni uğurlar arzulayıb.

Yubiley çərçivəsində MDU və KNEU arasında əməkdaşlıq memorandumu imzalanıb və xatirə hədiyyələri təqdim olunub.

Bununla yanaşı, səfər çərçivəsində KNEU tərəfindən MDU-ya riyaziyyat, iqtisadiyyat, idarəetmə və digər sahələri əhatə edən kitablar hədiyyə edilib. Universitetlər arasında yaradılmış qarşılıqlı faydalı əməkdaşlıq çərçivəsində dərslik və dərs vəsaitlərinin təqdim olunması MDU-da, ilk növbədə, İqtisadiyyat və idarəetmə, Pedaqoji fakültələrinin tədris-metodiki bazasının gücləndirilməsinə töhfə verilməsi məqsədi daşıyır.

Daha sonra Şahin Bayramov Ukraynaya səfəri çərçivəsində Kiyev Milli Texnologiya və Dizayn Universitetində (Kyiv National University of Technologies and Design - KNUTD) olub.

MDU rektorunu salamlayan KNUTD-un rektoru İvan Qrişenko Azərbaycan ali təhsil müəssisələri ilə əməkdaşlıqda maraqlı olduqlarını diqqətə çatdırıb. Ötən il 90 illik yubileyi qeyd edilən KNUTD-un keçdiyi inkişaf yolu haqqında ətraflı məlumat verən İ.Qrişenko universitetdə həyata keçirilən kadr hazırlığı istiqamətləri barədə danışıb. MDU ilə işbirliyinin potensial istiqamətlərindən bəhs edən İ.Qrişenko iki universitet arasında qarşılıqlı faydalı əməkdaşlığın qurulacağına əmin olduğunu bildirib.

Səmimi qarşılanmaya görə təşəkkürünü bildirən MDU-nun rektoru Ş.Bayramov 90 illik tarixi olan KNUTD ilə hərtərəfli əməkdaşlığın inkişafı üçün geniş imkanların mövcud olduğunu vurğulayıb. Hər iki universitetdə uyğun ixtisaslar üzrə kadr hazırlığının həyata keçirildiyini bildirən Ş.Bayramov tədris, elmi tədqiqat və ortaq layihələr istiqamətində görülə biləcək konkret işlərdən bəhs edib. KNUTD-da Azərbaycan Mərkəzinin fəaliyyət göstərməsindən məmnunluğunu bildirən Ş.Bayramov dost ölkənin sürətlə yenilənən ali təhsil müəssisəsi ilə əməkdaşlığın qurulmasının MDU-nun potensialının güclənməsinə töhfə verəcəyinə inandığını söyləyib.

Görüşdə MDU və KNUTD arasında əməkdaşlıq memorandumu imzalanıb və xatirə hədiyyələri təqdim olunub. Sonra MDU-nun rektoru Ş.Bayramov KNUTD-da Azərbaycan Mərkəzinə baş çəkib, universitetin mövcud infrastrukturu və laboratoriyaları ilə tanış olub.

Qeyd edək ki, Ukraynanın hər iki ali təhsil müəssisəsi ilə imzalanan və qarşılıqlı maraq doğuran sahələrdə potensial əməkdaşlığın inkişaf etdirilməsini nəzərdə tutan memorandumlar tələbə və müəllim mübadiləsi, ortaq təhsil proqramları, tədqiqatlar, elmi konfranslar, forumlar və digər müxtəlif istiqamətlərdə birgə fəaliyyətləri əhatə edir.

# “Kiçik Akademiya” rəhbərləri ilə görüş



**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) təşkilatçılığı ilə ümumi təhsil müəssisələrində “Kiçik Akademiya”ların fəaliyyətinə dair görüş keçirilib. Onlayn görüşdə BŞTİ-nin İnkişaf layihələri sektorunun müdiri Günay Qurbanova və 12 inzibati rayon üzrə ümumi təhsil məktəblərinin “Kiçik Akademiya” rəhbərləri iştirak ediblər.**

## Şagirdlərdə tədqiqat işinə marağın artırılması əsas hədəflərdəndir

Görüşün keçirilməsində məqsəd yaradıcılıq və elmi-tədqiqat işlərinə maraq göstərən, bu sahədə potensial imkanları ilə fərqlənən istedadlı uşaq və gənclərlə aparılan işin gücləndirilməsi, yeni fəaliyyət mexanizmlərinin yaradılmasına köməklik göstərilməsi və şagirdlərdə tədqiqatçılıq qabiliyyətinin formalaşması ilə bağlı tədbirlərin sistemli həyata keçirilməsi ilə əlaqədar yaradılan “Kiçik Akademiya”lar daxilində təşkil olunan tədbirlər və qarşıda duran məsələlər barədə müzakirə aparmaqdan ibarətdir.

Həmçinin görüşdə “Kiçik Akademiya”ların yuxarı sinif şagirdlərinin elmi axtarışlara sövq edilməsi, onların müasir tədqiqat metodlarına yiyələnməsi, ali təhsil müəssisələri ilə ümumi təhsil müəssisələri arasında əlaqələrin genişləndirilməsindəki böyük rolundan bəhs olunub. “Kiçik Akademiya”ların fəaliyyətinin gücləndirilməsinin və şagirdlərdə tədqiqat işinə marağın artırılmasının qarşıya qoyulan əsas hədəflərdən olduğu bildirilib.

Eyni zamanda “Kiçik Akademiya” daxilində həyata keçirilən işlərin sistemli şəkildə idarə olunması, izlənilməsi və işıqlandırılması məqsədilə *www.bakuka.az* saytının yaradılması, “Kiçik Akademiya” üzvlərinin I ümumşəhər konfransının keçirilməsi kimi məsələlər də müzakirə olunub.

Sonda “Kiçik Akademiya” rəhbərlərinin sualları cavablandırılıb.

# İlk müəllimim



İnsan dünyaya göz açandan yaşadığı həyatı dərk etməyə başlayır. Zaman keçdikcə həyatın gedişatını izləyir, ailədən başlayan əlaqəsi genişlənir, ətraf mühitlə münasibət yaradır. Uşaq vaxtlarından cəmiyyətin bir üzvü olaraq, həyatdakı roluna anlam vermək istəyir. Məktəb illəri onun həyatında birbaşa rol oynayır.

Dərs mühitinə öyrəşməyi, yaşıdları ilə ünsiyyətin, dostluq münasibətlərinin qurulması onun dünyasına rəng qatır. Bu ortamda o, cəmiyyətdə bir şəxsiyyət kimi formalaşmağa başlayır. Xüsusilə ilk məktəblə tanışlığı, ilkin yoldaşlıq bağlarının qurulması onun həyatına yeni bir cığır açır. Bu mühitdə insanın öz varlığının qavranması, şəxsi keyfiyyətlərinin artırılması üçün ona istiqamət verilməsi vacib amildir. Bu vəzifə təbii ki, hər birimizin həm mənəvi dəyərlərimizin, həm də bilik-bacarıqlarımızın yaranmasında, formalaşmasında və gələcəkdə inkişaf etməsində əvəzsiz rol oynayan ilk müəllimdir.

Əgər bir binanın təməli yaxşı qurulmayıbsa, o bina öz ucalığını daim saxlaya bilmək qabiliyyətində olmaz. Binanın uzun ömürlülüyü onun təməlinin möhkəmliyindədir. Bunu biz məktəb illərində aldığımız biliklərlə uyğunlaşdırsaq görərik ki, həqiqətən də aşağı siniflərdə alınan biliklər yuxarı siniflərə keçdikcə daha da artır, inkişaf edir. Bizim ibtidai sinifdə əldə etdiyimiz bacarıqlar digər siniflərə keçid edəndə möhkəmlənir, tərəqqi edir. Bunun üçün də bizə dərs deyən ilk müəllim bizim bilik və bacarıqlarımızın təməlini qoyur.

Bəli, ilk müəllimin həyatımızda izi çox mühüm və əvəzsizdir. O, bizə elmin sirlərini aşılamaqdan əlavə, həyata atılmağı, təlim-tərbiyə vərdişlərinə yiyələnməyi, ətraf mühitlə tanışlığı öyrədən şəxsdir. Əlimizdən tutaraq qələmlə işləməyi, yazı yazmağı, xüsusilə də bizə öz ana dilimizi sevə-sevə, həvəslə öyrədən insandır. Biz böyüsək də, yeni-yeni elmlərə, peşələrə yiyələnsək də ilk müəllimin həyatımızda rolunu unuda bilmirik. Onun bir müəllim, eyni zamanda mənəvi valideyn kimi bizim dünyamızda rolu danılmazdır. “İlk müəllim” sözünün anlamı hər birimiz üçün dərin köklərə söykənir. Onun öyrətdiyi biliklər, verdiyi nəsihətlər həmişə həyatımızda yaşıl işıq kimi yanmaqdadır.Onun əzmi, səbri, hər bir uşağa yanaşma tərzi böyük bir iradə, geniş insanlıq keyfiyyəti tələb edir. Uşaqlığımızda bizə hər zaman mühüm fikirlər aşılayıb, həyat yolumuzda doğru istiqaməti anlatmağa çalışmışdır. Hər bir uşağa məktəbi sevdirən də məhz ilk müəllimdir.

İlk müəllim obrazından danışarkən hər birimizin gözünün önündə keçmiş xatirələr canlanır. Bir anlıq o günlərə dönüş edirmiş kimi bir hiss qalxır ruhumuzda... həmin məktəb, həmin sinif, 20 nəfərə yaxın sinif yoldaşları və mən. Təbii ki, bir də ilk müəllimim.

Əynində göy rəngli jaketi, düz qaməti ilə sinfə daxil olur və özünəməxsus qalın səs tonu ilə bizi salamlayır. Biz də ayağa qalxıb xorla “salam müəllim” deyib yerlərimizdə əyləşirik. Başındakı qara şalı boğaz hissəsində bir düyün atır və başlayır bizə əlifbanı öyrətməyə. Biz də lövhədə yazılanları hüsnxətt dəftərimizə köçürməyə başlayırıq. Dərsin sonunda divarda asılan “Ətraf mühiti çirklənməkdən qoruma qaydaları” adlı plakatda yazılanları oxuyur və biz də təkrar edirik. Və zəngdir...Bu zənglər artdı, çoxaldı, amma bitmədi. Təhsil həyatımızda bitsə də xatirəmizdə zənglərin ahəngi eyni qalır. İllər keçdi, fəsillər dəyişdi və mən ilk müəllimimi müəllim masasının önündə deyil, evinin qarşısında, tut ağacının altında oturacaqda əyləşən gördüm. Məktəb vaxtlarındakı kimi həm sevinc, həm də həyəcana qərq olmuşdum. “Görəsən, məni tanıyacaqmı?” - sualını beynimdə gəzdirirdim. Axı 15 il az müddət deyildi. Yaxınlaşdım, şagirdi olduğumu söylədim. Bir qədər baxdı, adımı söyləyən kimi üzünə təbəssüm qondu, məni qucaqladı. Sifətimə yumşaq əliylə toxundu. Üzünün qırışlarını, ağarmış saçlarını daha yaxından hiss etdim. Bəli, müəllimimin yaşı artmışdı, ahıllaşmışdı. İllərlə yaddaşımda həkk olunan səsi isə dəyişməmişdi. Həmin səs, həmin avaz. Və üzərində mənə doğma olan həmin göy rəngli jaketi. O an hiss etdim ki, müəllimim üçün də mən unudulmamışdım. O an özümü sanki qanadlanıb uçacaqmış kimi hiss etdim. Həmişə məktəb vaxtı dərsin sonu zəng səsi gələndə həyəcanla, təşvişlə hazırlaşıb sinifdən “sağ olun, müəllim” deyib tələsik çıxırdıq və bilirdik ki, növbəti gün yenidən o sinfə gələcəyik. Sağolu salamla əvəzləyəcəyik. Amma o an sağollaşanda mənim içimdə qəribə hisslər baş qaldırdı. Müəllimimi yenidən görə biləcəyimi, zamanın buna imkan verəcəyini bilmirdim. Bildiyim bir həqiqət vardı. Müəllimim mənim həyatımda böyük iz buraxdığını, mənə doğma olduğunu, mənim təhsilə, mütaliəyə olan həvəsimin səbəbkarı olduğunu.

**Tünzalə QULİYEVA**

# Azərbaycan birincisi



## UNEC məzununun uğuru

**UNEC SABAH qruplarının Maliyyə ixtisası üzrə 2017-ci il məzunu Türkan Nəcəfli ACCA ixtisaslaşma imtahanında ölkə birincisi olub.**

**SABAH qruplarında oxuduğu müddətdə karyera həyatını “Böyük Dördlük” şəbəkəsində başlamağı hədəfləyən T.Nəcəfli 2017-ci ildən etibarən “Böyük Dördlük” şəbəkəsinə daxil olan “Deloitte & Touche” MMAC şirkətində çalışır. O, eyni zamanda beynəlxalq qurum olan ACCA (The Association of Chartered Certified Accountants) ixtisaslaşmasına sahib olmaq istiqamətində 13 imtahandan 9-nu uğurla bitirib, ACCA TX (Taxation) imtahanında isə ölkə birincisi olub.**

# Əsl ustalıq, pedaqoji məharət

## Şagirdlərinin gözündə ürəyini görməyi bacaran müəllim

Haqlı olaraq müəllimin işini cərrah işi ilə müqayisə edirlər. Cərrah əməliyyat edərək insanı düçar olduğu bəladan qurtarır. Müəllim isə insanın mənəvi dünyasının mühəndisi kimi şərəfli və çətin bir missiyanı yerinə yetirir. Müəllim insanların paklığının keşiyində həmişə sərvaxt dayanır. O, günəşə bənzər ömrü ilə minlərlə, milyonlarla insanın həyat yoluna şəfəq saçır.

Dünya şöhrətli yazıçı Ç.Aytmatov müsahibələrinin birində demişdir: “Əgər ac adama bir çörək versən, o, bir gün tox olar, on çörək versən on gün tox olar, ona çörək qazanmağın yolunu öyrətsən o, ömrü boyu tox olar. “Əsl müəllim də buna çalışır. Çünki çörək qazanmağın yolunu gərgin zəhmətdən, halal əməkdən, gecə-gündüz çalışmaqdan keçdiyini yetirmələrinə inandırmaq, onlara başa salmaq o qədər də rahat məsələ deyildir.

Bu çətin və şərəfli yükü çiyinlərinə götürən müəllimlərdən biri də Quliyeva Fatmaxanım Ələkbər qızıdır. O, 1958-ci ildə Quba şəhərində anadan olmuşdur. 1974-cü ildə Quba şəhər 2 saylı təbiət fənləri təmayüllü məktəb-liseyi bitirib. Bakı Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuş, 1981-ci ildə bu ali məktəbi ən fəal tələbələrdən biri kimi bitirmiş, həmin ildə də təyinatla Quba şəhər 4 saylı humanitar fənlər təmayüllü məktəb-liseyə ixtisası üzrə Azərbaycan dili və ədəbiyyat müəllimi göndərilmişdir. Artıq 40 ildir ki, bu məktəbdə əsl müəllim kimi çalışmış və nümunəvi işi ilə seçilərək fərqlənmişdir. O öz işinə böyük diqqət və məsuliyyətlə yanaşmış, məktəbin pedaqoji kollektivi arasında hörmət qazanmışdır.

Pedaqoji-psixoloji hazırlığını artırmağı fəaliyyətinin tərkib hissəsi sayan Fatmaxanım müəllim daim yenilik axtarışındadır. O, tədris etdiyi fənnə qəlbən bağlı olduğu kimi, onu şagirdlərinin də amalına çevirmək arzusu ilə yaşayır. Dərs məşğələlərinə hərtərəfli hazırlaşan F.Quliyeva müxtəlif iş üsullarından istifadə etməklə keçəcəyi mövzunu şagirdlərə başa salmağa, müəllimin tərbiyəedici imkanlarından maksimum istifadə etməyə, fəndaxili və fənlərarası əlaqə vasitəsilə mövzuların tamlığına, əyani şərhinə, şagirdlərin müstəqil mühakimə yürütmək qabiliyyətlərinin inkişafına bir qayda olaraq xüsusi diqqət yetirir. Onun dərslərindəki canlılığın, qaynarlığın bir səbəbi də müəllimin hər bir dərs məşğələsinə qabaqcadan planlı şəkildə hazırlaşmasıdır.

F.Quliyeva dili sevdirmək üçün Azərbaycan dili dərslərini yüksək səviyyədə qurmağa diqqəti artırmaqla yanaşı, sinifdənxaric tədbirlərin imkanlarından da səmərəli istifadə edir, şagirdlərin asudə vaxtının təşkilinə məsuliyyət və tələbkarlıqla yanaşır.

O, Nizami Gəncəvinin 880 illiyi münasibətilə bölgəmizin beş rayonu üzrə keçirilən müsabiqəyə qoşulmuş, müsabiqənin qalibi olaraq “Fəxri fərmanla” təltif edilmişdir. Onun qabaqcıl iş təcrübəsi rayon miqyasında yayılmışdır. F.Quliyeva həmkarları qarşısında fənn bölmələrində, metodbirləşmə iclaslarında müntəzəm olaraq maraqlı mövzularla çıxış edir. Fatmaxanım müəllimin işindən Quba 2 saylı təbiət fənləri təmayüllü məktəb-liseyin direktoru Eynulla Camalov həvəslə danışaraq deyir:

- Fatmaxanım müəllim direktoru olduğum məktəbdə fəaliyyət göstərən İstedadlar sinfində də işləyir.Ötən il onun dərs dediyi 19 şagirdin 19-u da ali və orta ixtisas məktəblərinə daxil olub. Fatmaxanım müəllim bu peşəyə ürəyini verib. Zəhməti sevməyi ona şöhrət gətirib. O, fənnin metodikasını dərindən bilir. Onun dərslərini çox dinləmişəm. Hər dəfə də ondan yeni bir cəhət mənimsəmişəm. Heç bir dərsi digərinin təkrarı olmaz. Bax, bu əsl ustalıqdır, pedaqoji məharətdir. O, şagirdlərinin gözündə ürəyini görməyi bacarır. Fənlərarası və fəndaxili əlaqənin imkanlarından bacarıqla istifadə edir. Onun işində müsbət və təqdirolunan cəhətlər çoxdur.

Quba şəhər 4 saylı humanitar fənlər təmayüllü məktəb-liseyin texnologiya müəllimi Rəqiyyə Əsgərova həmkarı barədə: - Bu il nəvəmin 555 bal toplayaraq ali məktəb tələbəsi olmasında Fatmaxanım müəllimin rolu böyükdür. O, şagirdlərini əlavə ədəbiyyat üzərində işlədir və səmərəsini də görür. Fatmaxanım müəllimin işi ürəkaçandır, valideynlərin də ən yaxşı məsləhətçisi və yolgöstərənidir. Fatmaxanım müəllim məzunlarla daim əlaqə saxlayır. Onlarla tez-tez görüşür. Hər dəfə onların xoş sorağını eşidəndə ürəyi dağa dönür.

Fatmaxanım Quliyeva həm də gözəl anadır. O, həyat yoldaşı Söhrab Əmrahovla birlikdə iki qız övladı böyüdüb boya-başa çatdırıb. İkisi də ən şərəfli peşə olan müəllimlik peşəsinə yiyələnib.

İnsanların həyatında elə anlar olur ki, o anlar yaddaşa həmişəlik həkk olur və silinməz izlər buraxır. Fatmaxanım müəllimin həyatında da belə anlar çoxdur. Müxtəlif illərdə “İlin müəllimi” adına layiq görülən, fəxri fərmanlarla, diplomlarla, “Tərəqqi” medalı ilə təltif edilən Fatmaxanım Quliyeva bu il Beynəlxalq Müəllimlər Günündə “Əməkdar müəllim” fəxri adına layiq görülmüşdür. Bu isə Quba müəllimlərinin hər birinin əməyinə verilən qiymətin təzahürüdür. Onu bu yüksək mükafata layiq görülməsi münasibətilə ürəkdən təbrik edir, daha böyük uğurlar arzulayıram.

**Şixəmməd SEYİDMƏMMƏDOV,**
*ADPU-nun Quba filialının “Təbiət fənləri və onun tədrisi metodikası” kafedrasının baş müəllimi*

# Məktəbəqədər təhsil

## Erkən yaşlarda öyrənmə uşağın həyatı boyu inkişafına müsbət təsir edir

**Uşaqların intellektual, fiziki və psixoloji inkişafında, şəxsiyyət kimi formalaşmasında və məktəbə hazırlanmasında xüsusi əhəmiyyətə malik olan məktəbəqədər təhsil Azərbaycan Respublikasının dövlət təhsil siyasətinin strateji istiqamətlərindən biridir. Bundan irəli gələrək Azərbaycan Respublikası Təhsil Nazirliyi 2015-ci ildə 5 yaşlı uşaqlar üçün məktəbəhazırlıq proqramı təşkil etmişdir. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 11.07.2016-cı il tarixli 271 nömrəli qərarına əsasən 2016/2017-ci tədris ilindən başlayaraq 2020-ci ilədək uşaqların məktəbəhazırlıqla əhatə olunma səviyyəsinin mərhələlərlə 90%-ə çatdırılması nəzərdə tutulur.**



**İlahə RƏSULOVA,**

*“İcma əsaslı məktəbəqədər təhsil” layihəsinin rəhbəri, Azərbaycan Respublikasının Təhsil İnstitutunun doktorantı*

**Məktəbəqədər yaş dövrünün önəm daşımasının səbəbləri bir çox elmi araşdırmalarda öz əksini tapır. 0-5 yaş dövründə insan beyni çox sürətlə dəyişir və inkişaf edir (Shonkoff & Phillips, 2000). Bu yaşda beynin sürətli inkişafı və çevikliyi nəticəsində uşaq ətraf mühitin təsirlərinə məruz qalır və məhz bu dövrdə koqnitiv, fiziki və sosial-emosional bacarıqları formalaşır (Furman & Bordoff, 2008). Anadan olandan 5 yaşa qədər əsası qoyulan bacarıqlar uşağın gələcək inkişafının təməl daşını təşkil edir. Müsbət ətraf mühit və öyrənmə imkanları uşaqların gələcəkdəki uğur və nailiyyətlərinin əsasını qoyur, bunun əksi olan neqativ təsirlər və münasibətlər isə uşağın inkişaf imkanlarını azaldır (Shonkoff et al., 2012).**

### Erkən yaşda təhsilin önəmliliyi

“Head Start” Proqramı, “Perry” Məktəbəqədər Təcrübə Proqramı və “Abecedarian” layihəsi bir çox ölkələrdə erkən yaşda təhsilə qoyulan sərmayənin bir sıra sosial təsirlərini aşkar etmişdir:

- Uşaqların akademik göstəriciləri yaxşılaşır, məktəbdən məzun olmaq imkanı yüksək olur;
- Uşaqların akademik fəaliyyətinə təsir edən yalnız koqnitiv (idraki) və digər bacarıqları deyil, həmçinin onların gələcək həyatdakı uğur və məhsuldarlığı üçün zəmin yaradır;
- Uşaqların erkən yaşında onlara qoyulan sərmayə gələcəkdə böyük gəlir gətirir;
- Gələcəkdə uşaqlar arasında cinayətlərin, pis vərdişlərin azalmasına və buna sərf olunacaq iqtisadi xərclərin azaldılmasına səbəb olur (Santina & Siciliab, 2018).

### Beynəlxalq qiymətləndirmədə məktəbəqədər təhsil

Daha keyfiyyətli məktəbəqədər təhsilə cəlb olunan uşaqlar məktəb həyatına hazırlıqlı və akademik göstəriciləri yüksək olur. PISA (Program for International Student Assessment - 15 yaşlı şagirdlərin oxu, riyaziyyat və təbiət elmləri sahəsindəki nailiyyətlərini ölçür) beynəlxalq qiymətləndirmə proqramı göstərir ki, erkən təhsilə cəlb olunan uşaqlar 15 yaşında oxu üzrə yüksək nailiyyətlər əldə edir. 2015-ci ildə keçirilmiş PISA nəticələrinin təhlili hətta uşaqların məktəbəqədər təhsil müəssisələrinə neçə il getməsinin də önəm daşımasını önəmsəyir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv olan ölkələrdə 3 il və daha artıq erkən təhsilə başlamış uşaqlar oxu, riyaziyyat və təbiət elmləri üzrə bu təhsilə cəlb olunmamış yaşıdalarına nisbətən 50 və daha yuxarı bal topladığını göstərir (OCED, 2018).

Digər beynəlxalq qiymətləndirmə proqramı olan “PIRLS 2016”da (Program for International Reading Literacy Study - 4-cü siniflər arasında oxuyub-anlama bacarıqlarını ölçür) iştirak etmiş ölkələrdə valideynlər arasında aparılmış sorğuya əsasən 59% uşaq 3 il və ya daha (oxuyub anlama üzrə nailiyyət - 520 bal) çox məktəbəqədər təhsilə cəlb olunur. Bundan başqa 18% uşaq 2 il (oxuyub anlama üzrə nailiyyət - 507 bal), 12% uşaq 1 il (oxuyub anlama üzrə nailiyyət - 498 bal) bu təhsilə cəlb olunublar. 11% uşaq (oxuyub anlama üzrə nailiyyət - 472 bal) ümumiyyətlə, məktəbəqədər təhsildən kənar qalıb (Mullis et al., 2017).

Həmçinin “PIRLS 2016”ya görə bir çox ölkələrdə məktəbəqədər təhsil icbaridir (Danimarka, Latviya), bəzilərində icbari olmasa da erkən təhsilə cəlb olunma 100% (İrlandiya, Çexiya, Fransa) əhatə edir. Digər ölkələr də bu sahədə bir çox işlər görürlər. Bəzi ölkələrdə ibtidai təhsil gec yaş aralığında başladığı üçün uşaqların məktəbəqədər təhsilə daha çox müddətə cəlb olunma imkanları olur (Finlandiya, Litva, İsveçdə uşaqların məktəbə başlama yaşı 7-dir) (Mullis et.al, 2017).

### Müxtəlif ölkələrdə məktəbəqədər təhsil

Yuxarıda qeyd edildiyi kimi, beynin inkişafı ilə bağlı onilliklərlə aparılmış araşdırmalara əsasən erkən yaşlarda öyrənmə uşağın həyatı boyu inkişafına müsbət təsir edir. İlk bir neçə il ərzində formalaşan rəngləmə fəaliyyətindən tutmuş hesablama fəaliyyətlərinə qədər beyindəki neyronların birləşərək yaratdığı “cığırlardan” istifadə edir. Bu yanaşma məktəbəqədər təhsillə bağlı bir çox ölkələrin təhsil siyasətinin formalaşmasında nəzərə alınıb (Burlacu, 2013).

Oyunlar, rəsm, musiqi vasitəsilə məktəbəqədər yaşlı uşaqlar ətraf mühit, yaşadıqları həyat haqqında öyrənir və kəşf edirlər. Bir çox nəzəriyyəçilər bütün uşaqların erkən yaşda təhsilə cəlb olunmasının arzu olunan olduğunu vurğulayırlar, bu, daha çox sosial cəhətdən həssas ailələrdən olan uşaqlar üçün xüsusilə önəmlidir (Burlacu, 2013).

Erkən yaşlarda olan öyrənmə uşaqlarda əqli və konseptual (“böyük fikirlər”) inkişaf, nitqin inkişafı, uşaqların fiziki sağlamlığı, onlarda özgüvən və özünü qiymətləndirməni təşviq edən sosial-emosional bacarıqların inkişafı, davranışın yaxşılaşmasına müsbət təsir edir. Bir çox elmi sübutlar göstərir ki, məktəbəqədər təhsilə cəlb olunan uşaqlar bu təhsilə cəlb olunmayanlardan bir sıra xüsusiyyətlərinə görə fərqlənir. Birincilərdə oyun vasitəsilə verbal ünsiyyət, sosial bacarıqlar, oyun zamanı yaradıcı düşünmə, təxəyyülün güclü olması, problemin həlli bacarıqları daha yüksək səviyyədə olur (Burlacu, 2013).

Avropa Birliyi ölkələri məktəbəqədər təhsilə böyük önəm verir. 4-5 yaş arasında məktəbəqədər təhsil alan uşaqların faizi Avropa Birliyi ölkələrində olduqca yüksəkdir. 2000-ci ildən etibarən 85%-ə çatdıqdan sonra tədricən 2010-cu ildə 92%-ə yüksəlib. Ancaq Avropa Birliyi 2020-ci illərə qədər bu hədəfi 95%-ə çatdırmağı nəzərdə tutur (Burlacu, 2013).

Əksər Avropa ölkələrində məktəbəqədər təhsil pulsuzdur. Finlandiyada yeni məktəbəqədər təhsil proqramı təhsil planının hazırlanması üçün fərdi və ya qrup şəklində valideynlərlə əməkdaşlığa yönəlmişdir. Bu plan uşağın böyüməsi və inkişafı üçün əldə ediləcək məqsədlər, güclü və zəif tərəflərinin qiymətləndirilməsi kimi fərdi inkişafdakı əsas faktorları müəyyən etməlidir. Yerli şərait və profilə uyğun olaraq milli məktəbəqədər təhsil proqramının standartlarına əsaslanaraq hər bir məktəbəqədər təhsil müəssisəsi detallı proqram hazırlaya bilər.

İsveçdə 1995-ci ildən bələdiyyələrin işləyən və ya oxuyan valideynlərin 1 yaşdan 12 yaşa qədər olan bütün uşaqlarını dövlət və ya özəl təhsil müəssisələrində yerləşdirmək öhdəliyi var.

Fransada məktəbəqədər təhsil təhsilə qeyri-bərabər çıxışın azaldılmasında əhəmiyyətli bir amil olaraq görülür. Buna görə də azyaşlı uşaqları olan bütün ailələrin mədəni, sosial, etnik və coğrafi mənşəyindən asılı olmayaraq uşaqlarını məktəbəqədər təhsil müəssisəsinə yazdırmaq hüququ tanınır. Almaniyada məktəbəqədər təhsil müəssisələrində uşaqların və ailələrin gündəlik təcrübələrinə daha böyük əhəmiyyət verilir. Valideynlərin öyrənmə prosesində iştirakı uşaq bağçalarının icma həyatına inteqrasiyasında önəm daşıyır (Burlacu, 2013).

2019-cu ilin statistikasına görə Fransa və İngiltərədə uşaqların 100%-i məktəbəqədər təhsil müəssisələrinə cəlb olunur. Belçika, Danimarka, İspaniya, Estoniya, Latviya, İtaliya, Hollandiya, İsveç kimi ölkələrdə 90-98% məktəbəqədər təhsilə cəlb olunma qeydə alınıb.

## Azərbaycanda məktəbəqədər təhsil

2016-cı ildə məktəbəhazırlıq qruplarının 1-ci sinif şagirdlərinin nailiyyətlərinə təsirini ölçmək üçün Azərbaycan Respublikasının Təhsil İnstitutu araşdırma aparmışdır. Araşdırma 1097 nəfər 1-ci sinif şagirdləri arasında keçirilmiş və onların Azərbaycan dili və riyaziyyat fənləri üzrə bilikləri yoxlanılmışdır. Bu şagirdlərin hər iki fənn üzrə nəticələri nəzarət qrupuna daxil olan məktəbəhazırlıq keçməmiş həmyaşıdlarına nisbətən daha yüksək olmuşdur (Azərbaycan Respublikasının Təhsil İnstitutu, 2016).

0-5 yaş aralığı uşaqların koqnitiv, sosial-emosional, fiziki inkişafının ən kritik dövrü olduğu üçün məktəbəqədər təhsil 5 yaşlıları əhatə edən məktəbəhazırlıq qrupları ilə məhdudlaşa bilməz. Nəzərə alsaq ki, “Öyrənmə anadan doğulandan başlayır”, erkən öyrənmə daha aşağı yaşdan başlamalıdır. Hal-hazırda erkən yaşda öyrənmə Azərbaycanda fəaliyyət göstərən dövlət və qeyri-dövlət uşaq bağçalarında, özəl uşaq təhsil mərkəzlərində, körpələr evi, körpələr evləri-uşaq bağçalarında həyata keçirilir. Azərbaycanda dövlət və qeyri-dövlət məktəbəqədər təhsil müəssisələrinin və bu müəssisələrə gələn uşaqların ümumi sayı 2019-cu ilin əvvəlinə aşağıdakı kimidir (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2021). *(Cədvəl 1)*

Statistik rəqəmlərdən də göründüyü kimi, 80%-ə yaxın uşaq məktəbəqədər təhsildən kənarda qalır ki, bu da onların gələcəkdə həm təhsil nailiyyətlərinə, fiziki, sosial-emosional inkişafına, həm də, ümumiyyətlə, həyat üçün önəmli bacarıqların əldə olunmasına mənfi təsir edir. Cədvəl şəhər və kənd üzrə məktəbəqədər təhsil müəssisələrinin qeyri-bərabər paylandığını və çox sayda azyaşlı uşaqların bu təhsildən kənar qalmasını göstərir.

2017-ci ildə Azərbaycan Respublikasının Təhsil İnstitutu pilot olaraq UNICEF-in Azərbaycan ofisinin maliyyə dəstəyi ilə məktəbəqədər təhsil müəssisələrinin olmadığı 10 rayonun 50 kəndində ümumtəhsil məktəblərinin nəzdində İcma Əsaslı Məktəbəqədər Təhsil mərkəzlərini açdı.

Layihənin əsas məqsədi məktəbəqədər təhsilin əhatəliliyini artırmaq, valideynləri erkən uşaq inkişafı prosesinə cəlb etmək, onları maarifləndirmək və valideyn-məktəb, icma-məktəb münasibətlərini yaxşılaşdırmaqdır.

2018-ci ildə layihə genişlənərək Avropa İttifaqının Azərbaycan Nümayəndəliyinin dəstəyi ilə daha 50 kənddə ümumtəhsil məktəblərinin nəzdində İcma Əsaslı Məktəbəqər Təhsil Mərkəzləri fəaliyyətə başladı.

Hal-hazırda 55 şəhər və rayonu əhatə edən 700 ümumtəhsil orta məktəblərinin nəzdində fəaliyyət göstərən 15000-ə yaxın 3-4 yaşlı uşağın cəlb olunduğu 850 İcma Əsaslı Məktəbəqədər Qruplar fəaliyyət göstərir.

*Mərkəzlərin fəaliyyəti.* Mərkəzlərdə məşğələlər 2-2.5 saat olmaqla həftədə 4 gün həyata keçirilir. Hər mərkəzə 20-yə yaxın 3-4 yaşlı uşaq cəlb olunur.

*Proqram.* Bütün mərkəzlər müvafiq mebel, fiziki inkişaf üçün isveç divarı, idman ləvazimatı, erkən uşaq inkişafı ilə bağlı müxtəlif öyrədici materiallar, oyuncaqlarla təmin olunub. Mərkəzlərdə məşğələlər 3-4 yaşlı uşaqların məktəbəqədər təhsilinin məzmun standartları əsasında eston və yerli mütəxəssislər tərəfindən hazırlanmış proqrama uyğun olaraq aparılır. Proqramdakı məşğələlər uşaqların koqnitiv, sosial-emosional, fiziki, nitq bacarıqlarını əhatə edən məzmuna malikdir. Oyun təcrübə əsaslı öyrənmə proqramının ana xəttini təşkil edir. Proqramda keçilən mövzular ətraf mühit, ümumi bilik, incəsənət, nitq, kiçik və böyük motorikanın inkişafına xidmət edən məşğələlər əsasında inteqrativ şəkildə öyrədilir.

Erkən yaşda öyrənmənin təsirlərini ölçmək üçün layihə çərçivəsində bir sıra araşdırmalar həyata keçirilmişdir.

2019 və 2020-ci illərdə övladları icmaəsaslı məktəbəqədər təhsilə cəlb olunan valideynlər arasında sorğular aparılmış və bu təhsilin uşaqlara təsirləri ölçülmüşdür. Sorğuda 464 valideyn (93.3% qadın və 6.7% kişi) iştirak edib. Hər iki halda respondentlər övladlarında aşağıdakı sahədə müsbət dəyişiklikləri müşahidə ediblər (*Cədvəl 2.).*

Bundan başqa, 2020-2021-ci illər ərzində İcma Əsaslı Məktəbəqədər Təhsil Mərkəzində erkən inkişaf proqramına cəlb olunmuş 3-5 yaşlı uşaqlar və onların valideynləri arasında tədqiqat keçirilmişdir. Tədqiqatın əsas məqsədi “İcma Əsaslı Məktəbəqədər Təhsil Mərkəzləri”ndə tətbiq edilən erkən inkişaf proqramının səmərəliliyini müəyyən etmək və valideynlərin uşaqlarının erkən inkişafı ilə bağlı təsəvvürlərinin (tərbiyə üslubları) və sosial-iqtisadi, demoqrafik göstəricilərin onların inkişafı ilə əlaqəsini müəyyən etməkdir. Tədqiqat Azərbaycanın 9 rayonunda (25 icmada) erkən təhsilə cəlb olunmuş 3-5 yaşlı 486 uşaq və 435 valideyn arasında keçirilmişdir. Tədqiqatın əsas fərziyyəsi ondan ibarət idi ki, alternativ məktəbəqədər təhsil mərkəzlərində tətbiq edilən erkən inkişaf proqramı uşaqların erkən inkişafına müsbət təsir edir. Daha dəqiq desək, erkən təhsilə cəlb olandan əvvəl və sonra uşaqların 8 əsas inkişaf sahəsi üzrə göstəricilərində (böyük və kiçik motor, nitqin ifadə olunması və başa düşülməsi, audio və vizual diqqət və hafizə, özünə xidmət bacarığı və sosial bacarıqlar) və ümumi biliklərində müsbət dəyişikliklər müşahidə edilir. Eyni zamanda, tədqiqat göstərir ki, valideynlərin erkən tərbiyə üslublarına (valideynlik) dair yanaşmaları, sosial-iqtisadi, demoqrafik göstəriciləri ilə uşaqlarının erkən inkişaf göstəriciləri arasında əlaqə vardır.

Tədqiqatın nəticələrinə əsasən uşaqların erkən təhsil təcrübəsindən əvvəl və sonra onların 8 psixi inkişaf göstəriciləri və ümumi bilik üzrə nəticələrində müsbət tendensiya müşahidə edilir (hər şkala üzrə p=0.00). Eyni zamanda, valideynlərin sosial-iqtisadi göstəriciləri arasında sadəcə valideyninin yaşı və uşaqların nitqin ifadə olunması (-.121) və nitqin başa düşülməsi bacarıqları (-.114) arasında əlaqə mövcuddur. Əlavə olaraq, tədqiqat nəticəsində müəyyən edildi ki, valideynlərin əsas üstünlük verdikləri tərbiyə üslubları uşaqlar üçün erkən öyrənmə mühitinin yaradılması idi. Valideynlərdən 84.3 faizi evdə uşaq kitabının olduğunu, 46.7 faizi isə hər gün uşaqlarına kitab oxuduğunu vurğuladı. Evdə oxu mühiti və erkən inkişaf göstəriciləri (kiçik motor bacarıqları, nitqin ifadə edilməsi və başa düşülməsi, vizual diqqət və hafizə və özünəxidmət bacarıqları) arasında da müsbət korelyasiyalar mövcud idi *(Cədvəl 3.).*

Beləliklə, hər iki araşdırma erkən yaşda uşaqların məktəbəqədər təhsilə cəlb olunmasının müsbət təsirlərini əks etdirir və uşaqların məktəbəqədər təhsilə daha tez cəlb olunmasını labüd edir.

| | |
|---|---|
| **1. Ümumi məktəbəqədər təhsil müəssisələrinin sayı – ölkə üzrə** | 1803 |
| 1.1 Şəhər | 1081 |
| 1.2 Kənd | 722 |
| 1.3 Dövlət | 1679 |
| 1.4 Qeyri-dövlət | 124 |
| **2. Məktəbəqədər təhsil müəssisələrinə gedən uşaqların sayı (1-5 yaş)** | 28.5% |
| 2.1 Şəhər üzrə | 39.8% |
| 2.2 Kənd üzrə | 17.9% |
| 2.3 Dövlət müəssisələri üzrə | 27.8% |

Cədvəl 1

**Valideyn sorğusu**




Cədvəl 2

**İcma əsaslı məktəbəqədər təhsil müəssisələrinə gəlmiş uşaqların diaqnostik və son qiymətləndirilməsi**




Cədvəl 3

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Sumqayıt Dövlət Universiteti

ştatda boş olan vəzifələri tutmaq üçün müsabiqə

## ELAN EDİR

**Fakültə dekanı**

Riyaziyyat fakültəsi - 1 yer
Tarix və coğrafiya fakültəsi - 1 yer

**Kafedra müdiri**

İqtisadiyyat kafedrası - 1 yer

**Kafedralar üzrə dosent**

Maliyyə və mühasibat uçotu - 1 yer
Dünya iqtisadiyyatı və marketinq - 1 yer
İnformasiya texnologiyaları və proqramlaşdırma - 1 yer
Kimya və onun tədrisi metodikası - 1 yer

**Qeyd:** *Sənədlər bu elan dərc olunan gündən bir ay (30 gün) müddətində təqdim oluna bilər. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini mövcud əsasnaməyə müvafiq olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim etməlidirlər.*

**Ünvan:** Az5008 Sumqayıt, 43-cü məhəllə, SDU otaq 233,

**Telefon:** (018) 642-15-06 Əlavə: 1-16

**REKTORLUQ**


**"AZƏRBAYCAN MÜƏLLİMİ"**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 7976 **Sifariş** 2255

**Məsul növbətçi:** O.Mustafayev


# Tələbələr logistika sahəsində təcrübə proqramına qoşulub



166 Yükdaşıma və Logistika şirkəti gənclər üçün ödənişli təcrübə proqramı təşkil edib. Təcrübə proqramına qoşulanlar arasında Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 3 tələbə və məzunu da var.

Ali məktəbdən bildirilib ki, iştirakçılar bakalavr və magistr dərəcəsi üzrə təhsil alan gənclər arasından seçilib. Beləliklə, üç ay müddətində təcrübəçilər ödənişli olaraq şirkətin əsas departamentlərində müxtəlif sahələr üzrə praktiki və nəzəri biliklərə yiyələnəcəklər.

Qeyd edək ki, təcrübə müddətində öz peşə bacarıqlarını uğurla nümayiş etdirən namizədlər "166 Yükdaşıma və Logistika" şirkətinin müvafiq departamentlərində əmək funksiyalarının icrasını davam etdirəcəklər.

# Etibarsız sayılır

**Şabran rayon** Çölquşçu kənd tam orta məktəbi 2009-cu ildə bitirmiş Dünyamalıyev Samir Əziz oğluna verilmiş A-662718 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 163 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Abdullayeva (Mustafayeva) Arzu Fərhad qızına verilmiş BN-203990 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** M.Müşfiq adına 34 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Nəsirov Elçin Dilqəm oğluna verilmiş A-04326450 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2002-ci ildə Mirzəyeva Günay Əfrasiyab qızına verilmiş BB-I-007198 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** İ.Ələşrəfov adına Xalac kənd tam orta məktəbi 2000-ci ildə bitirmiş Nəcəfova Vüsalə Vahid qızına verilmiş A-478679 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Zindan Muruq kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Mançarov Sərxan Oktyabr oğluna verilmiş B-079386 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Y.Qasımov adına 4 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Həmzəyev Fəxri Ağaqulu oğluna verilmiş A-209799 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** M.F.Ağayev adına Üçtəpə kənd orta məktəbini 1991-ci ildə bitirmiş Şahbazov Elmir Telman oğluna verilmiş B-646691 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Rabitə Kolleci** tərəfindən 1999-cu ildə Abdullayeva Elnarə Mülkəsahib qızına verilmiş AB-II-033076 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şuşa şəhər** 19 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Əliyev Fəxri Rövşən oğluna verilmiş A-069433 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci** tərəfindən 2018-ci ildə Nəsibova Fidan Natiq qızına verilmiş AA-109529 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Neft Energetika Kolleci** tərəfindən 2018-ci ildə Əliyev Natik Eldəniz oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Ə.Əliyev adına 204 nömrəli orta məktəbi 1995-ci ildə bitirmiş Hacıyeva Aliyə Koroğlu qızına verilmiş A-059668 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2012-ci ildə Məmmədova (Abbaslı) Aygün Məhəbbət qızına verilmiş B-257733 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Fizika-riyaziyyat və informatika təmayüllü liseyi** 2015-ci ildə bitirmiş Qarayev Hümmət Tofiq oğluna verilmiş A-421212 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Respublikası Təhsil Nazirliyi** tərəfindən 2007-ci ildə Səmədli Vüqar Muxtar oğluna verilmiş 001036 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Goranboy şəhər** 1 nömrəli tam orta məktəbi 1981-ci ildə bitirmiş Qəhrəmanova Yasəmən Əjdər qızına verilmiş 495899 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** N.Süleymanov adına Çinarlı qəsəbə tam orta məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Hümbətova Nigar Zülfiqar qızına verilmiş A-295185 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** N.Süleymanov adına Çinarlı qəsəbə tam orta məktəbi 2008-ci ildə bitirmiş Mehtiyeva Nuridə Ramiz qızına verilmiş B-539670 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** Ş.İ.Xətai adına 30 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Qəhrəmanova Şəbnəm Əhməd qızına verilmiş AN-520886 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 1994-cü ildə İbrahimova Kəbirə Əsgər qızına verilmiş AB-I-011436 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** T.Abbasov adına 225 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Abasova Ülviyə Cahangir qızına verilmiş 136302 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**15 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2019-cu ildə Piriyev Orxan Ötkəm oğluna verilmiş A-114449 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** Ş.Qurbanov adına 3 nömrəli tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Bəhərçiyeva Xəyalə Bəhri qızına verilmiş AZ-885744 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** H.Şahbazov adına Kərimbəyli kənd tam orta məktəbi 1996-cı ildə bitirmiş Bayramov Elşad Asif oğluna verilmiş A-125534 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan şəhər** 2 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Məmmədova Aynurə Fəxrəddin qızına verilmiş A-043446 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** İftixar Tağıyev adına 26 nömrəli orta məktəbi 2010-cu ildə bitirmiş Rzayev Vasif Rüstəm oğluna verilmiş B-673175 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Todan kənd tam orta məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Qurbanova (Əliyeva) Maral Vəli qızına verilmiş B-446878 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Xırmandalı kənd 2 nömrəli tam orta məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Bəşirova Aygün Habil qızına verilmiş B-452049 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 204 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Qasımov Elşən Ruslan oğluna verilmiş E-012059 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Fəxrəddin Nəcəfov adına 266 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Əliyeva Xatirə Bəhram qızına verilmiş 1448 nömrəli arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 11 nömrəli texniki peşə məktəbi tərəfindən 1983-cü ildə Kazımov Rasim Sarxan oğluna verilmiş 414592 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 314 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Qafari Farzanə Tourulay qızına verilmiş A-279711 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Telman Abbasov adına 225 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Səyyaflı Abdin Faiq oğluna verilmiş C-181926 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 212 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş İsmayılova Nigar Vaqif qızına verilmiş A-024117 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kəngərli rayon** Xok kənd tam orta məktəbi 2021-ci ildə bitirmiş Əkbərov Yəmən Əbülfəz oğluna verilmiş E-387707 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli Bakı Tibb Kolleci** tərəfindən 2017-ci ildə Məmmədova Jalə Rəşadət qızına verilmiş AA-090783 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

# Yenilikçi təşəbbüslər

## V Qrant müsabiqəsi qaliblərinin uğur hekayələri

**Son illər təhsil sahəsində həyata keçirilən islahatların müsbət nəticələri müəllimlərimizin, ümumi təhsil müəssisələrimizin ciddi fəallığına səbəb olub. Bu, özünü innovativliyə və yeni yanaşmalara əsaslanan təşəbbüslərdə də göstərir. Artıq 5-ci ildir ki, reallaşdırılan Təhsildə inkişaf və innovasiyalar üzrə qrant müsabiqələri müəllimlərimizin bir sıra uğurlu layihələrlə çıxış etməsinə stimul yaradıb. Yenilikçi müəllimlərimizdən bir qrupunun V Qrant müsabiqəsində qalib gəlmiş uğurlu layihələrini oxuculara çatdırmaqda davam edirik.**

### "Aerokosmik mühəndislik - pilotsuz uçan aparatlar mərkəzi"



Bakının uğurlu tədris ənənələri ilə seçilən ümumtəhsil müəssisələrindən olan 287 nömrəli "Zəkalar" liseyi Təhsildə inkişaf və innovasiyalar üzrə V qrant müsabiqəsində "Aerokosmik mühəndislik- pilotsuz uçan aparatlar mərkəzi" layihəsi ilə qalib olub. Layihənin rəhbəri, liseyin direktoru Aygün Əhmədlinin sözlərinə görə, bu layihədə məqsəd müasir təhsil çağırışları əsasında inkişaf etmiş ölkələrdə tətbiq edilən yeniliklərin ölkəmizdə də həyata keçirilməsinə nail olmaqdır.

- Layihənin əsas vəzifəsi - dronların şagirdlər tərəfindən hazırlanması, onlarla işləmə bacarığının təkmilləşdirilməsi, şagirdlərin gələcək robotexnika olimpiadalarında, "Sabahın alimləri" müsabiqəsində bir gənc ixtiraçı alim kimi çıxış etmələrinə imkan yaradılması, görkəmli elm adamları ilə görüşlərinin təşkil edilməsidir. Şagirdlərin avia-raket modelçiliyi və Aero mühəndislik peşələrinə yiyələnməsinə yardım edilməsi, STEAM bacarıqlarının dəstəklənməsi və həvəsləndirmə, gələcək pilotsuz uçan təyyarə mühəndislərinin, gənc mütəxəssislərin hazırlanması da əsas hədəflərdəndir. Layihədə 7-14 yaş qrupu şagirdlər və müəllimlər üçün 4 ay ərzində Master Robot- Dron Texnologiyası proqramı üzrə təlimlərin keçirilməsi planlaşdırılıb. Təlim müddətində şagirdlərə həm nəzəri, həm də praktiki bacarıqlar öyrədiləcək və nəticədə onlar pilotsuz uçan aparatların hazırlanması üçün kiçik mühəndis kimi formalaşacaqlar.

Bu gün Azərbaycanda müxtəlif uşaq inkişaf, texniki yaradıcılıq mərkəzləri mövcuddur. Bu mərkəzləri məktəbə gətirmək lazımdır. Hazırda ölkə məktəblərində STEAM layihəsi icra olunur. Amma pilotsuz uçuş aparatlarının inkişaf etdirilməsi ilə bağlı bir mərkəz olmadığı üçün "Zəkalar" liseyinin nəzdində Azərbaycanda ilk yeni model STEAM layihəsi "Gənc Mühəndislər", "Gənc Mühəndislər-AERO Robotexnika Mərkəzi" nin yaradılması irəli sürülür. Bu mərkəzdə şagirdlər PUA-ları məhz özləri istehsal edəcək, proqram təminatı yazacaq və sonra onları idarə edəcəklər. AERO Robotexnika Mərkəzi "Zəkalar" liseyinin nəzdində şagirdlərin texniki yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsi sahəsində böyük əhəmiyyət daşıyacaq. Ona görə gələcəkdə də liseydə bu fəaliyyətin mərkəz olaraq davam etdirilməsi nəzərdə tutulur.

### "Mənim animasiyam"



Təhsildə inkişaf və innovasiyalar üzrə 5-ci qrant müsabiqəsinin fərdi kateqoriya üzrə qalib layihələrindən biri də " Mənim animasiyam" dərnəyidir. Layihə rəhbəri Bakıdakı Yusif Mirzəyev adına 44 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi Təranə Nuriyevadır:

- Belə bir layihəni çoxdan idi ki, reallaşdırmağa çalışırdım. Təhsil Nazirliyinə bu işdə mənə fürsət yaratdığı üçün təşəkkürümü bildirirəm. Hazırkı nəsil texnologiya əsrində böyüyür. XXI əsrin yaratdığı "texnoloji əyləncələr" uşaqlarda diqqət yayınıqlığına, özünəqapanmağa, özgüvən əksikliyinə və yaradıcı təfəkkürün ləngiməsinə gətirib çıxarır. Lakin biz böyüklər nə etsək də uşaqlarımızı bu "texnoloji əyləncələrdən" təcrid edə bilmərik. Çünki dövr, zaman bunu bizdən tələb edir. Diqqət yayınıqlığı nəticəsində ibtidai sinif şagirdləri beyinlərində qurduqları fikirlərə fokuslanıb izah edə bilmirlər. Diqqət yayınıqlığı kreativ düşüncəni, analitik düşüncəni, göz və əlin bir-biri ilə koordinasiyasını ləngidir. Konsentrasiyanı gücləndirəcək ən yaxşı metod xırda detallarla işləməkdir. Çünki şagird bu zaman diqqətini cəmləməyə məcbur olur. Digər bir məsələ isə ibtidai sinif şagirdlərində özünəqapanıqlığın çox olmasıdır. Müasir dövrün uşaqları ev şəraitində kompüterdə müxtəlif proqramlarla vaxt keçirdiklərindən bu cür halın baş verməsi qaçılmazdır. Nəticədə, bu yaş qrupundakı uşaqlarda özgüvən əksikliyi yaranır. Araşdırmalara əsasən özgüvən əksikliyini 2 şəkildə aradan qaldırmaq olur. Bunlardan biri idman, digəri incəsənətlə məşğul olmaqdır.

Biz isə incəsənət və texnologiyanı birləşdirərək şagirdlərə "animasiya"nı təqdim edirik. 9-10 yaş qrupuna aid olan şagirdlər öz gördüklərini, eləcə də görmək istədiklərini animasiya şəklində hazırlayırlar. Hazırladıqları məhsul onların yaratdığı orijinal məhsul olur. Nəticədə şagirdlərdə özgüvən problemi aradan qalxmış olur. Eyni zamanda şagirdlər animasiyanı yaradarkən kreativ şəkildə düşünməli olurlar. Bu da onlarda kreativ və analitik düşünməyə gətirib çıxarır. İkinci bir tərəfdən isə şagird öz düzəltdiyi animasiyanı ətrafdakı insanlara izah edərkən əlaqə, ünsiyyət qurmalı olur, bu isə onun nitqini inkişaf etdirir. Layihəmizin icrası sentyabrın 15-dən başlayıb. Oktyabr ayının ilk həftəsindən layihə həftədə 1 dəfə 2 qrupa bölünərək icra olunur. Şagirdlər animasiya proqramları ilə müxtəlif videolar hazırlayırlar. Düşünürəm ki, bu layihə yeni nailiyyətlərə səbəb olacaq, yeni yanaşmalar ortaya çıxaracaq.

### "Şagirdlərin Astronavtika Məktəbi"

Təhsildə inkişaf və innovsiyalar üzrə V Qrant müsabiqəsində qalib gəlmiş və günümüzün çağırışları ilə səsləşən diqqətəlayiq layihələrdən biri də "Şagirdlərin Astronavtika Məktəbi" layihəsidir. Layihənin müəllifi, Şamaxı rayon Sabir qəsəbə tam orta məktəbin direktoru, filologiya üzrə fəlsəfə doktoru Gülnurə Babaşova:

- Məlum olduğu kimi, elm dünyasının ən mötəbər və yüksək zirvəsi hesab olunan Beynəlxalq Astronavtika Konqresinin 2022-ci ildə Azərbaycanda keçirilməsi qərara alınıb. Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, Azərbaycanın Beynəlxalq Astronavtika Konqresinə ən yüksək səviyyədə ev sahibliyi etməsi üçün təşkilati işlərə başlanılıb. Bu möhtəşəm elm tədbiri ərəfəsində Azərbaycan məktəblilərinin astronavtika sahəsinə meyil və marağının yaradılması çox məqsədəuyğun olardı. Azərbaycanda son illərdə başladılan STEAM tədrisinin qollarından biri də "STEAM to Astronomy"-dir. Yəni, STEAM-da astronavtika üzrə müəllimlər və şagirdlərlə iş aparılması çox aktual istiqamətlərdəndir. Layihə çərçivəsində astronavtika istiqamətində müəllimlər və şagirdlərlə praktik işlərin aparılması, bilik və bacarıqların aşılanması üçün təlimlərin təşkili, Şamaxı Astrofizika Rəsədxanasının, Bakıdakı Tusi Bohem Planetariumun, "Azərkosmos" ASC və s. malik olduğu tədris imkanlarından istifadə nəzərdə tutulub. Layihənin məqsədi müəllim və məktəblilərə astronavtika məzmunlu mühəndislik-dizayn həllərini proqramlaşdırma ilə vəhdət şəklində mənimsətmək və onlarda XXI əsr bacarıqlarını formalaşdırmaq üçün şagirdlərin "astronavtika məktəb"ni təşkil etməkdir.



Hədəf qrupu olacaq şagird və müəllimlər üçün STEAM-da astronavtika məzmunlu təlim və fəaliyyətlər təşkil ediləcək, həmçinin Şamaxı Astrofizika Rəsədxanasına elmi-təcrübi ekskursiya, teleskoplarla səmanın müşahidəsi həyata keçiriləcək. Layihə çərçivəsində "Azərkosmos"ASC-yə ekskursiya təşkil ediləcək. Ekskursiyadan qayıdan şagirdlər öz təəssüratlarını əks etdirən video və ya təqdimatlar hazırlayacaqlar. Məktəblər səviyyəsində astronavtika elminə marağın yaradılması, potensiallı şagirdlərin aşkarlanması mümkün olacaq. Qeyd edək ki, noyabrın 1-də layihənin artıq açılış mərasimi keçirilib. 100 nəfərə yaxın iştirakçının qatıldığı tədbir yüksək maraqla qarşılanıb.

### "İnklüziv siniflərdə STEM+ART layihəsinin tətbiqi"

Məlumdur ki, son illərdə dünyada fənlərin inteqrasiyasına əsaslanan STEM təhsil yanaşması məzmunca yeni keyfiyyətdə çıxış edir. Gəncə şəhər 21 nömrəli tam orta məktəbin müəllimi Aygün Rzayevanın "İnklüziv siniflərdə STEM+ART layihəsinin tətbiqi" layihəsi də bu yeni məzmuna adekvat münasibət kimi qiymətləndirilə bilər. Layihə barədə müəllif özü məlumat verir:

- Son illərdə STEAM təhsil müasir təhsil fenomeni kimi peşəkar səriştələrə malik mütəxəssis hazırlığında mühüm istiqamət kəsb etməkdədir. STEAM layihəsi hazırda Bakının 42 ümumi təhsil müəssisəsində tətbiq olunur. Lakin bu təlimlər və dərslərdə iştirak edənlər sağlam siniflərdə təhsil alan, heç bir fiziki qüsuru olmayan şagirdlərdir. Apardığımız araşdırmaya görə, Rusiya Federasiyası, ABŞ, Finlandiya və Estoniya kimi ölkələrdə inklüziv təhsildə STEAM layihəsinin tətbiqi uğurla davam edir. Şagirdlər bu təlimlərin sayəsində özlərini daha sərbəst və daha innovativ ideyalara sahib bilik və bacarıqlara malik tərzdə aparır və hətta öz fiziki qüsurlarını belə unutmuş olurlar. Bu gün irəli sürdüyümüz ideyanın məqsədi - yeni bir təhsil modelinin Azərbaycan təhsilində tətbiqinə nail olmaq və Gəncə şəhərində yeni yaradılacaq



STEAM+ART Tədris Mərkəzində ilk dəfə inklüziv siniflərdə STEAM layihəsinin tətbiqinə başlamaqdır. Bu Mərkəzə azərbaycanlı mütəxəssislərlə birgə eyni zamanda Türkiyə və Avropa mütəxəssisləri də dəvət olunacaq. Layihənin vəzifələrinə STEAM+ART Təhsil Mərkəzinin yaradılmasına, inklüziv siniflərdə xüsusi təlim proqramı əsasında gələcəyin dahi şəxsiyyətlərinin yetişdirilməsinə, layihə vasitəsi ilə öyrənmə və təhsilə olan baxışların innovativ istiqamətdə dəyişdirilməsinə nail olmaqdır. Praktiki bacarıqlara diqqət yetirərək, məktəblilər öz iradələrini, yaradıcılıq potensialını, çevikliyini inkişaf etdirir və başqaları ilə əməkdaşlıq etməyi öyrənirlər. Bu bilik və bacarıqlar tədrisin əsas hədəfini, yəni bütün təhsil sisteminin məqsədini təşkil edir.

STEM+ART Tədris Mərkəzi beynəlxalq təcrübəni özündə əks etdirəcək. Bu tədris Mərkəzində elmin və texnologiyaların öyrədilməsində ənənəvi yanaşmadan fərqli olaraq, STEM təhsili praktik məşqələlər vasitəsilə elmi-texniki biliklərin gündəlik həyatda necə tətbiq olunmasını şagirdlərə göstərəcək.

Bu mərkəz bir məktəb rolunu oyanacaq. İrəli sürdüyümüz məsələ inklüziv təhsil sahəsində tam yenilik olacaq. Təlim metodikasına müvafiq olaraq inklüziv təhsil uşaqlara qarşı hər hansı formada ayrı-seçkilik edilməsinin qarşısını alacaq, müxtəlif nevroloji və ya psixi xəstəlikləri olanlara belə mükəmməl şəkildə təhsil almaq, uğur qazanmaq imkanı vermiş olacaq.

### "3D modelləşdirmənin və Google Sketchup proqramının təhsilə tətbiqi"

Bərdə şəhər akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü məktəb-liseyin informatika müəllimi Aytac Əkbərli V Qrant müsabiqəsində "3D modelləşdirmənin və Google Sketchup proqramının təhsilə tətbiqi" layihəsi ilə iştirak edib və qalib elan olunub.

- Hazırda təhsil sistemi qarşısında yüksək 3D bilik və bacarıqlarına malik pedaqoji və inzibati kadrlarla təminatın müasir standartlar səviyyəsinə çatdırılması təxirəsalınmaz məsələ kimi durur. Ən aktual məsələlərdən biri də məktəblərdə STEAM layihəsinin tətbiq olunmasıdır. Məhz STEAM layihəsinin tətbiqində də 3D modelləşdirmədən istifadə olunur. 3D vasitəsilə informasiyanın imkanları artır, rəng və forması dəyişən əşyaların təsvirini reallaşdırır. 3D nəinki insanların koqnitiv imkanlarını inkişaf etdirir, həmçinin yeni inkişaf perspektivləri, yeni qlobal mədəniyyət sistemi yaradır və təhsilin keyfiyyəti üçün maraqlı imkanlar açır. Layihəmin əsas məqsədi SketchUp proqramının tətbiqi ilə əlaqədər yeni bacarıqların formalaşması haqqında müzakirələr aparmaq, şagirdlərin maraq və qabiliyyətlərinin üzə çıxarılmasıdır. Bir



informatika müəllimi olaraq düşünürəm ki, kompüter biliklərinin əsası məhz orta məktəbdə ibtidai təhsildə qoyularsa, daha yaxşı nailiyyətlər əldə bilərik.Məhz məqsədim də şagirdlərə bu proqramı daha dərindən və əyləncəli formada mənimsətmək, həmçinin onlarda formalaşan bacarıqları üzə çıxarmaqdır. 3D modelləşdirməyə, yəni SketchUp proqramına marağı olan istedadlı şagirdlər üçün dərnək və təlimlər təşkil etmək, müxtəlif təlim üsulu və vasitələrdən istifadə edərək şagirdlərin 3D modelləşdirmə sahəsində bilik və bacarıqlarını artırmaqdır. Layihənin vəzifəsi Bərdə şəhər akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü məktəb-liseydə, eləcə də Bərdə, Yevlax, Gəncə və Ağdam rayonları üzrə 200-ə yaxın şagirdi müxtəlif təlim proqramları - 3D modelləşdirmə və Google SketchUp proqramı üzrə məlumatlandırmaq, onların qazandığı vərdişləri inkişaf etdirmək, rəğbətləndirmək və informatika fənn olimpiadalarında iştirak etmələrinə dəstək olmaqdır. Layihəmdəki əsas vəzifə yalnız təhsil prosesini təmin edən üsul deyil, həm də məktəblinin müstəqil qavrama qabiliyyətini təmin etmək üçün yeni imkanlar açacaq, uşaqları yeni biliklər qazanmağa sövq edəcək.

**Oruc MUSTAFAYEV**